www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 avqust 2014-cü il Cümə № 210 (5919) Qiymәti 40 qәpik

## Xəbər

**Bakıda 18 yaşlı gənc avtobusdan yıxılıb öldü**

yazısı səh.2-də

## Gündəm

### Bu gün Əbülfəz Elçibəyin anım günüdür



Silahdaşları eks-prezidentin məzarını ziyarət edəcəklər; Almurad Əliyev: "Kim tədbir keçirir-keçirsin, mənim üçün hamı birdir..."

yazısı səh.8-də

### Türkiyənin yeni baş naziri Əhməd Davudoğlu oldu - şərh, tərcümeyi-hal

Qardaş ölkənin 26-cı baş nazirinin Azərbaycan siyasətçiləri ilə də yaxın münasibətləri var

yazısı səh.7-də

### Partiyalar bələdiyyə seçkilərinə ciddi yanaşmır

yazısı səh.5-də

### Hökumət dəbdəbəli yas mərasimlərinə qadağa qoydu

Hüzn məclislərində yemək verilməsi yasaqlanır

yazısı səh.12-də

### Hacı Qalib icra başçısının qarşısından geri çəkildi

**Deputat:** "Artıq aramızdan su da keçmir"

yazısı səh.5-də

### Evdən qaçan qızla bağlı müəmma davam edir

Əməkdaşımız iki üzvü intihar edən ailənin qonşularını danışdırıb

yazısı səh.15-də

### Leyla Yunusa kamerada təzyiq edən gəncəli qadın kimdir?

yazısı səh.3-də

### İsrailin "erməni soyqırımı"nı tanımasına Azərbaycan mane olur

yazısı səh.9-da

### Rektorlar Təhsil Nazirliyinin Kollegiyasından çıxarıldı

yazısı səh.2-də

### AXCP fəalı Gürcüstanda səfirliklərindən birinə sığınıb

yazısı səh.4-də

## Azərbaycanda sələfi camaatına yaxın quruma qarşı əməliyyat

# BAKIDAKI VƏHHABİ FONDUNDA QƏFİL YOXLAMA VƏ HƏBSLƏR

1994-cü ildən ölkədə problemsiz fəaliyyət göstərən "Dar əl-Bir" xeyriyyə cəmiyyətinə də növbə çatdı; təşkilatın nümayəndəliyi yalnız vergi yoxlamaları olduğunu bildirsə də, ortada şübhəli məqamlar çoxdur; "Əbu Bəkr" məscidinin imamı Qamət Süleymanovun fonda hansı aidiyyəti var?..

yazısı səh.7-də




# Bakının "ölüm körpüsü"nə daha bir nəfər çıxdı...

İcra başçısının aldatdığı şəxs intihara cəhd etdi; Qənirə Paşayeva hadisə yerinə gəldi, Fəqan Nəsibov fikrindən daşındırılaraq Zakir Qaralovun qəbuluna aparıldı, onun şikayəti Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndərildi

yazısı səh.13-də



### Kəmaləddin Heydərov Elçibəyin oğluna iş verib

yazısı səh.2-də



*Mehman Əliyev:*

### "Azərbaycan hakimiyyəti çətin durumla üzləşəcək"

yazısı səh.3-də



Anar Ələkbərov

### Heydər Əliyev Mərkəzinin direktoru dəyişdirilir?

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014

## Mehriban Əliyeva Küveytin yüksək mükafatına layiq görülüb



**Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Küveyt Dövlətinin yüksək mükafatına layiq görülüb.**

Fonddan APA-ya verilən məlumata görə, İslam mədəni irsinin dünyada geniş təbliği, Azərbaycanda və ölkə hüdudları xaricində nəcib xeyriyyə fəaliyyəti, təhsilə, tibbə verdiyi böyük töhfələrə görə Mehriban Əliyeva Küveyt Dövlətinin Fəxri diplomu ilə təltif olunub.

Küveyt Dövlətinin Qadın Məsələləri üzrə Komitəsinin sədri Şeyxa Lətifə Əl-Fəhd Əl-Səlim Əl-Sabahın imzaladığı Fəxri diplomda Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya həyata keçirdiyi nəcib xeyriyyə və təbliğat fəaliyyətinə görə Küveyt qadınları adından dərin təşəkkür ifadə olunub və bu istiqamətdəki işlərində uğurlar arzu edilib.

Qeyd edək ki, bu, Küveyt qadınları adından xarici ictimai-siyasi xadimə verilən ilk mükafatdır.

## Sabir Rüstəmxanlı bəzi QHT-ləri "casus yuvası" adlandırdı


Sabir Rüstəmxanlı

**"Azərbaycanda bəzi qeyri-hökumət təşkilatları casus yuvası olub. Həmin QHT rəhbərlərinin kökü, etnik mənşəyi göz önünə gətiriləndə, həmin şəxslərin indiyədək Azərbaycanda aşkarcasına fəaliyyət göstərməsi belə adama qəribə gəlir".**

Bunu APA-ya açıqlamasında **Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri, millət vəkili Sabir Rüstəmxanlı** deyib.

S.Rüstəmxanlı bəzi QHT təmsilçilərinin həbsinə münasibət bildirərək, onların içində Azərbaycan qanunlarına zidd addım atanların olduğunu vurğulayıb: "Yeni ən azı onların işlərinə baxanda görürəm ki, mənim düşüncə tərzimə uyğun olmayan bir sıra proqramlar həmin QHT-lərin vasitəsi ilə həyata keçirilir. Bəzilərinin aldığı pulların mənbəyi də qaranlıqdır. Bu baxımdan onların içərisində Azərbaycan qanunlarına zidd addım atanlar da var..." O, müxalifyönümlü siyasi partiya rəhbərlərinin QHT təmsilçilərinin həbsi ilə bağlı təsis etdiyi Birləşmiş Hüquq Müdafiə Mərkəzinin toplantılarına qatılmamasının səbəbini də açıqlayıb.

**S.Rüstəmxanlı bildirib ki, sözügedən qurumun fəaliyyəti VHP tərəfindən araşdırıldıqdan sonra orda iştirak edib-etməmək barədə qərar veriləcək:** "Mən Azərbaycanda deyildim. İki gün öncə Türkiyədən qayıtmışam. Telefonla Mirmahmud Mirəlioğlu ilə danışığımız olub. Amma mənim yaranan qurumun çərçivəsi, məqsədi, təşəbbüskarları haqqında ciddi məlumatım yoxdur. Məlumat olmadığına görə həmin qurumda iştirak edib-etməyəcəyimiz barədə bir söz deyə bilmərəm. Bu məsələ hələ araşdırılmalıdır".


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişiklikler etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat» qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41


## Kəmaləddin Heydərov Elçibəyin oğluna iş verib

**Azərbaycanın mərhum prezidenti Əbülfəz Elçibəyin oğlu Ərturqut Əliyevə iş tapılıb. Bu barədə "Şərq"ə bəyin qaynı Mirmöhsün Mahmudov bildirib. Onun sözlərinə görə, Ə.Əliyev dövlət idarəsində çalışacaq: "Fövqəladə Hallar Nazirliyinə işə düzəlib. Hələlik həmin qurumda kurs keçir. 3 aylıq kursdan sonra rəsmən işlə təmin olunacaq".**


Kəmaləddin Heydərov

Qeyd edək ki, bu ilin iyunun 24-də Ə.Elçibəyin anadan olmasının 76-cı ildönümündə qayını M.Mahmudov onun oğlu Ərturqut Əliyevin işlə təminatı barədə imkanlı şəxslərə və dövlət məmurlarına müraciət etmişdi: "Ərturqutun dayısı kimi xahiş edirəm. Kimin imkanı varsa, onu işə qoysun. Ürəkləri hara istəyir, ora da göndərsinlər. Yazıqdır, cavan uşaqdır. Nə qədər bekar gəzəcək?"

**Elçibəyin qardaşı Almurad Əliyev** "Yeni Müsavat"a dedi ki, hələ bir il əvvəl Kəmaləddin Heydərovla görüşündə nazirdən Ərturquta iş xahişini edibmiş: "O zaman nazir dedi ki, gəlsin, ona yanımda iş verərəm. Ancaq o vaxt mən dedim, Ərturqutun işləməyə marağı olmadı, iş xoşuna gəlmədi. Sonralar deyirdi ərizə vermişəm. Ancaq bu gün eşitdim ki, iş məsələsi düzəlib". A.Əliyev bildirdi ki, Ə.Əliyev hazırda Kələkidədir və iş mövzusunda söhbətləri olmayıb.

❑ **ELSAD**



## Rektorlar Təhsil Nazirliyinin Kollegiyasından çıxarıldı

**Nazirlər Kabineti "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının tərkibi haqqında" 2007-ci il 12 mart tarixli qərarında dəyişiklik edib.**

APA-nın məlumatına görə, Təhsil Nazirliyinin Kollegiyasının sayı 7 nəfərdən ibarət müəyyənləşdirilib.

Kollegiyanın sədri təhsil naziri Mikayıl Cabbarov, Kollegiyanın üzvləri təhsil nazirinin müavinləri Ceyhun Bayramov, Firudin Qurbanov, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev, Təhsil Nazirliyi Aparatının rəhbəri Mətin Eynullayevdir.

Nazirlər Kabinetinin qərarında Təhsil Nazirliyinin Kollegiyasının üzvlərindən 2-nin adı yer almayıb. Gələcəkdə Təhsil Nazirliyinin təklifi ilə iki nəfərin də adı Kollegiyanın üzvləri sırasına daxil edilə bilər.

Xatırladaq ki, bundan əvvəl Təhsil Nazirliyinin Kollegiyasının tərkibi 13 nəfərdən ibarət olub. Bura təhsil naziri, təhsil nazirinin 4 müavini, Təhsil Nazirliyi Aparatının rəhbəri, Təhsil Nazirliyinin strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinin müdiri, Təhsil Nazirliyinin Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdiri, o cümlədən Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları, Azərbaycan Təhsil Problemləri İnstitutunun direktoru daxil olub.

## "Siyasi Məhbuslarsız Azərbaycan" həbsdəki hüquq müdafiəçilərinin səhhətindən nigarandır

**Həbsdə olan hüquq müdafiəçilərinin səhhətlərinin və saxlanma şəraitlərinin günbəgün pisləşməsi ilə bağlı ötən saylarımızda geniş məlumat vermişdik. Şəkər xəstəliyindən əziyyət çəkən Leyla Yunusun vəziyyəti daha ağırdır. Yaranan bu vəziyyət yerli və beynəlxalq təşkilatları ciddi narahat edir.**



Bununla bağlı "Siyasi Məhbuslarsız Azərbaycan" İctimai Alyansının üzvləri, keçmiş vicdan məhbusları bəyanat veriblər.

Bəyanatda deyilir: "Həbsə atılmış tanınmış hüquq müdafiəçilərin həyatlarının təhlükə altında olmasından çox narahatıq.

Hüquq müdafiəçisi Leyla Yunusun yaşına və sağlamlığında ciddi təhlükələr olmasına baxmayaraq, ona tibbi yardım edilmir, hətta evdən gələn ərzaq və dərman qəbul edilmir. Onun həyat yoldaşı Arif Yunus MTN-in təcridxanasında saxlanılır. Bu onun haqqında olan yeganə məlumatdır. İctimaiyyətə heç bir məlumat verilmir.

Bundan əlavə, tanınmış hüquqşünas İntiqam Əliyevin saxlanma şəraiti qənaətbəxş deyil və o, tibbi müayinə edilmir. RATİ rəhbəri, hüquq müdafiəçisi Emin Hüseynli barəsində məlumat verilmir.

Penitensiar Xidmətin müəssisələrində müşahidə olunmuş işgəncə və ölüm ilə nəticələnən halları nəzərə alaraq, vicdan məhbusları, Leyla Yunus, Arif Yunus, İntiqam Əliyev və Rəsul Cəfərovun həyatlarından dərin narahatlığımızı bildiririk".

**Təşkilat Penitensiar Xidmətdən məhbuslarla standartlara uyğun rəftar edilməsini tələb edib:** "Bildiyimiz kimi, Azərbaycan Penitensiar Xidməti Avropa Şurasının Penitensiar Xidmətinin konvensiyasına qoşulub. Buna görə də biz onlardan tələb edirik ki, həbsdə olan vicdan məhbusları ilə standartlara uyğun rəftar olunsun. Onların şərəf və ləyaqətləri alçaldılmamalı, hüquqları təmin olunmalıdır".

❑ **Cavanşir ABBASLI**

## Bakıda 18 yaşlı oğlan avtobusdan yıxılıb öldü

**Bakıda 18 yaşlı oğlan bədbəxt hadisənin qurbanı olub. Nərimanov Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə "Baksol yolu" adlanan ərazidə qeydə alınıb. Abşeron rayon sakini, 1996-cı il təvəllüdlü Bəhruz İdris oğlu Cəfərov 71 saylı xətt marşrutu üzrə hərəkət edən "Daewoo" markalı sərnişin avtobusundan yıxılaraq ölüb.**

Hazırda faktla bağlı araşdırma aparılır.


"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




## "Yeni Müsavat" köşklərdən yığışdırılıb

Qəzetin 19 avqust tarixli sayının pdf formatlı variantını da saytdan silibirlər

**"Yeni Müsavat" qəzetinin 19 avqust tarixli sayı paytaxt köşklərindən yığışdırılıb. Bu barədə oxuculardan redaksiyamıza məlumat daxil olub. Xəbəri dəqiqləşdirdiyimiz zaman məlum oldu ki, qəzet köşklərdən pulla alınaraq yığışdırılıb. Həmin gün hansısa əllər qəzetin saytından pdf formatını da sildiriblər.**

Bu məsələ ilə bağlı proqramistlərimizdən və saytın əməkdaşlarından izahat alınıb. Ancaq qeyri-müəyyən vəziyyət yaranıb. Anlamaq olmur ki, nə səbəbə bu addım atılıb. Qeyd edək ki, həmin tarixli sayda baş manşetdən "Coca-cola"nın Nidası qoyuldu" başlığı altında bu içki məhsullarının bazardan yığışdırılması xəbəri yayımlanıb. İkinci manşetdən isə "Kəbirə Məmmədovanın erməni şərikinin olması haqda müdhiş məlumat" sərlövhəli məqalə dərc edilib.

Həmçinin, flaş xəbərdə "Kriminal avtoritet "AF Hotel"də qətl törətdi" yazısı, gündəmdən "Bakıda amerikalıların ikinci "Arqo" əməliyyatı - qaçırılan kimdir?" başlıqlı yazı, habelə "Anar Məmmədovun "Yeni Müsavat"la 4 min manat davası" məqaləsi və başqa yazılar çap edilib. Qəzet rəhbərliyi "Yeni Müsavat"ın köşklərdən alınaraq yığışdırılması məsələsindən narahatdır. Qəzetin baş redaktoru Rauf Arifoğlu bildirdi ki, musavat.com saytından pdf variantının silinməsi anlaşılan deyil.

❑ **EMİL**

## Polisin həyat yoldaşı intihar etdi

**Bakıda intihar hadisəsi baş verib. Xətai Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Nəsrəddin Tusi küçəsi-49 ünvanında qeydə alınıb.**

Bakı şəhər sakini, 27 yaşlı Qəmər Həsən qızı Hacıyeva özünü yaşadığı binanın beşinci mərtəbəsindən ataraq intihar edib.

Polisdən həmçinin bildirib ki, mərhumun həyat yoldaşı Edqar Hacıyev Rayon Polis İdarəsinin əməkdaşıdır.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Azərbaycan hakimiyyəti çətin durumla üzləşəcək"

## Mehman Əliyev: "Bu həbslər daha çox siyasi məhbus siyahısının qarşısını almağa hesablanmışdı"

**Ötən ayın sonlarından başlayaraq Azərbaycanda vətəndaş cəmiyyətinin fəallarına qarşı kampaniya aparılır. Həbs dalğasını ölkəmizdə müstəqil fəaliyyət göstərən QHT-lərə qarşı olan hücumların tərkib hissəsi adlandırmaq mümkündür. Təsadüfi deyil ki, indiyə qədər 20-yə yaxın QHT-nin ya bank hesabları dondurulub, ya da barələrində cinayət işi açılıb.**

Qeyd edək ki, son günlərdə həbs edilən 4 tanınmış simadan 3-ü QHT rəhbəridir. Bunlar Leyla Yunus, İntiqam Əliyev və Rəsul Cəfərovdur. Çoxları bu həbs dalğasının miqyasının genişləcəyini güman edirdi. Lakin görünən tərəf odur ki, son olaraq, İntiqam Əliyevin həbsindən sonra bu prosesin səngiməsi müşahidə olunur. Amma barələrində cinayət işi açılmış bəzi QHT rəhbərlərinin azadlıqda olması, həbslərin hər an baş verməsi anlamına gəlir.

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** hesab edir ki, bundan sonrakı prosesləri dəqiq analiz etmək çətindir: "Bundan sonra nə olacağını demək olduqca çətindir. Bu həbslər daha çox siyasi məhbus siyahısının qarşısını almağa hesablanmışdı. Amma bu baş vermədi. Yeni məhbus siyahısı açıqlandı. Məncə daha çox bununla bağlıdır. Çünki həbs edilənlərin hamısı vahid siyasi məhbus siyahısının hazırlanmasında fəal iştirak edənlər idi. Bəzi QHT-lər var ki, fəaliyyəti demək olar dayandırılıb. Bunlar Media Hüquqları İnstitutu, Hüquq Maarifçiliyi Cəmiyyəti, RATİ, Sülh və Demokratiya İnstitutudur. Bu təşkilatlar insan hüquqları, siyasi məhbuslar və cəmiyyəti narahat edən əsas problemlərlə məşğul olurdu. Ona görə də, bu təşkilatların zərərsizləşdirilməsi həyata keçirildi. Belə baxanda çox ciddi bir itki oldu".



Mehman Əliyev

**Mehman bəy RATİ-nin bağlanmasının səbəblərini də açıqladı:** "RATİ-nin bağlanmasına səbəb olan əsas amillərdən biri vətəndaş cəmiyyətinin nümayəndələrinin toplaşmasına mane olmaq idi. İclaslar, mətbuat konfransları orada keçirilirdi. Doğrudur, sonuncu dəfə QHT-lərlə bağlı yaradılan işçi qrupu BMM-də toplaşmışdı. Bununla hakimiyyət mesaj vermək istəyir ki, biz istədiyimiz zaman bizə məxsus yerlərdə tədbirlər keçirə bilərsiniz. Faktiki olaraq, bu vətəndaş cəmiyyətini qorxutmaq, dar çərçivəyə salmaq üçün atılan addımlar idi. Hakimiyyət bu yolla istədiyi qaydaları həyata keçirmək istəyir. Müəyyən mənada buna nail olub".

**"Turan" rəhbəri son həbslərlə bağlı Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar olacağını düşünmədiyini də qeyd etdi:** "Hesab edirəm ki, bu həbslər hakimiyyətə qarşı sanksiyalar olacağı vəziyyətinə gəlməyəcək. Məncə hakimiyyət danışıqlara gedəcək və mesajlar da verəcək. Müsibətə doğru nəsə gözləmək lazımdır".

Mehman Əliyev hakimiyyətin kompramisə gedəcəyini bildirdi: "Yenə qeyd etmək istəyirəm ki, əsas məsələ vahid siyasi məhbuslar siyahısı idi. Bununla bağlı məsələ öz həllini tapıb. Konkret vahid siyahı, mövcud QHT-lər ortada var. Müəyyən siyasi partiyalar, ictimai birliklər - istər iqtidar, istərsə də, müxalifətyönümlü - bir araya gəliblər. Orta ciddi bir mesaj qoyublar ki, bu problemlər həll olunsun. Hazırda yerli və beynəlxalq təşkilatlar tərəfindən mövcud problemlərin qeydiyyata alınması baş verir. Bu ciddi məsələdir. Əsası ortada konkret mövqe var. Artıq sonrakı mərhələ hərəkət etmək mərhələsidir. Bu baş verərsə, Azərbaycan hakimiyyəti çətin durumla üz-üzə qalacaq".

❑ Cavanşir ABBASLI

# Leyla Yunusa kamerada təzyiq edən gəncəli kimdir?

## Yaşar İsaqov: "Onun iddiaları tamamilə əsassızdır"
## Cavad Cavadov: "Belə şeylə zarafat etmək olmaz..."

**Xəbər verdiyimiz kimi, həbsdə olan hüquq müdafiəçisi Leyla Yunus özü kimi həbsə alınmış həyat yoldaşı Arif Yunusa açıq məktub ünvanlayıb. Məktubdakı sentimental məqamlarla yanaşı, hüquq müdafiəçisinin həbsxanadakı dözülməz şəraiti barədə dedikləri də diqqət çəkir.**

Məktubdakı məhz həmin məqamları yada salaq: "Əzizim Arif, bax, birgə həyatımızın 36 ilindən sonra biz başqa-başqa zonlardakı ayrı kameralardayıq. Mənim əzizim, məgər sən bilmirsənmi ki, mən hər şeyə dözərəm: həm, dəhşətli fiziki ağrılara (soyuq su məndə ciddi soyuqdəymə də yaradıb), həm kameradakı köhnə stajlı cinayətkarın təzyiqlərinə (yeri gəlmişkən, o, gəncəlidir və yenə də bizim Gəncə bizi məyus etməkdədir), həm də prokurorluqdakıların vizitlərinə. Mən yeməyin olmamasına da dözürəm (bilirəm ki, sənə də bir şey gətirməyə imkan vermirlər, mələfələri dəyişmirlər və dərmanların da yoxdur). Dərmansız və yeməksiz qalmışam".

Göründüyü kimi, məktubda xeyli ciddi qanun pozuntularından və mənəvi işgəncədən söhbət gedir. Məlum olur ki, türmədə köhnə stajlı qadın məhbuslardan biri L.Yunusa təzyiq göstərir. Bundan başqa, ona dərman və yeməkləri çatdırılmır, həyat yoldaşına da eyni qaydada mənəvi təzyiq edilir.

Biz də bu iddialara cavab almaq, hüquq müdafiəçisinin şikayətlərinin araşdırılıb-araşdırılmadığını öyrənmək üçün Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə əlaqə saxladıq. **Xidmətin rəhbəri Yaşar İsaqov** bildirdi ki, L.Yunusun yazdıqları həqiqətə uyğun deyil. Onun sözlərinə görə, Ədliyyə Nazirliyi Penitensiar xidməti artıq bəyan edib ki, müasir standartlara uyğun inşa edilmiş və beynəlxalq müşahidəçilərin də daim yüksək qiymətləndirdikləri Bakı İstintaq Təcridxanasındakı kameralarda saxlanma şəraiti ilə bağlı problem mövcud deyil: "Təqsirləndirilən şəxs Leyla Yunusun həyat yoldaşına ünvanladığı



Leyla Yunus

məktubda saxlanıldığı kamerada su, hava, qida və dərman çatışmazlığı, fiiziki işgəncə və sovqatla bağlı toxunduğu məqamlar tamamilə əsassızdır. Digər təqsirləndirilən şəxslər kimi Leyla Yunus da "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" AR Qanununda nəzərdə tutulan hüquqlardan tam həcmdə istifadə edir. Təcridxananın bütün kameraları Cəza İcra Məcəlləsinin və Daxili İntizam Qaydalarının tələblərinə uyğun şəkildə təmiz hava axını və içməli su ilə təmin edilir".

**L.Yunusun vəkili Cavad Cavadov** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, məhbus qadının ona təzyiqləri ilə bağlı detallarla mediaya yolladığı son məktub vasitəsilə xəbər tutub: "Bu gün onunla görüşdüm. Amma həmin məsələni detalları ilə soruşmağı unutdum. Bilirəm ki, kamerada 6 nəfər qalırlar. Mənə daha öncə bildirmişdi ki, məhbuslardan biri onu ciddi narahat edir, bezdirir. Detalları bildirməmişdi. Növbəti görüşümdə bu məsələni dəqiqliklə öyrənəcəyəm".

C.Cavadov onu da dedi ki, L.Yunusa hələ də qida və dərman ötürülmür: "Unudurlar ki, Leyla Yunus şəkər xəstəsidir. Onunla belə zarafat edirlər. Belə şeylə zarafat etmək olmaz. Şəkər xəstəsinin dərman və qidasını verməmək onu ölümə aparmaq deməkdir".

**"Yeni Müsavat" isə xatırladır ki, daha öncə məşhur qadın məhbuslardan olan sabiq deputat Gülər Əhmədovanın nümunəsində bu halın tamamilə əksi baş verirdi. Belə ki, sabiq deputatla eyni kamerada saxlanan qadının ona qulluq etməsi, yardımçı olması kimi məlumatlar həmin vaxt mediada yer almışdı. İstisna edilmir ki, L.Yunusun şikayətləndiyi qadın məhbus öyrədilmiş olsun və hüquq müdafiəçisinə mənəvi təzyiq göstərmək üçün sifariş alsın. Hər halda bu, L.Yunusun növbəti məktublarında üzə çıxacaq.**

❑ Sevinc TELMANQIZI

# 8-ci kilometrdə işıqlar niyə tez-tez sönür?

**Tanrıverdi Mustafayev:** "Bu bizdən asılı olmayan səbəblərə görə baş verir"
**İmran Məmmədov:** "Yarımstansiyanın elektrik xəttində problem yaranmışdı"
**Müzəffər Baxış:** "Dəymiş ziyana görə "Bakıelektrikşəbəkə"ni məhkəməyə verə bilərsiniz"

**Son vaxtlar "Yeni Müsavat" qəzetinin redaksiyasının yerləşdiyi, Nizami rayonu Rüstəm Rüstəmov küçəsində işıqlar tez-tez sönür. İşıqların qəfil sönüb-yanması nəticəsində elektriklə işləyən avadanlıqlara ziyan dəyir, redaksiyanın işində fasilələr yaranır. Bu məsələ artıq adi hala çevrildiyindən niyə belə bir vəziyyətin yaranmasının səbəbini "Bakıelektrikşəbəkə" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayevdən öyrənməyə çalışdıq. T. Mustafayev işıqların onlardan asılı olmayan səbəblərə görə söndüyünü dedi: "Bizim xətlərin hamısı normaldır və heç bir problem yoxdur. Bizdən asılı olmayan səbəb üzündən nəsə problem yaranıb. Ona görə də əməkdaşlarımızı məsələni araşdırmaları üçün redaksiyanıza göndərdik".**

**"Bakıelektrikşəbəkə" ASC-nin Nizami rayon şöbəsinin rəisi İmran Məmmədov** isə bildirdi ki, işıqlar 8-ci kilometr yarımstansiyasının göstərişi əsasında söndürülüb: "İşıqlar 8-ci kilometr yarımstansiyasının elektrik xəttində problem olduğu üçün sönmüşdü. Demək olar ki, artıq xətdəki problem aradan qalxıb".

Bəs istehlakçının işığı sönərsə, hüquqi baxımından nə edə bilər?

**Hüquqşünas Müzəffər Baxış** bildirdi ki, istehlakçının məhkəməyə müraciət etmək hüququ var: "Əgər sizin "Bakıelektrikşəbəkə" ilə müqaviləniz varsa və bu qurum müqavilənin şərtlərini tez-tez pozursa məhkəməyə müraciət edə bilərsiniz. Siz aktiv işləyirsiniz və elektrikin kəsilməsi nəticəsində yazdıqlarınız kompyuterdən silinə bilər. Həmçinin işıqların tez-tez sönüb-yanması nəticəsində kompyuterlər, elektrik avadanlıqları sıradan çıxa bilər. Siz dəyən ziyanı sübutlar əsasında toplayaraq hüquqi qaydada müqavilə şərtlərinə uyğun olaraq "Bakıelektrikşəbəkə"ni məhkəməyə verə bilərsiniz. Redaksiyanın avadanlıqlarına dəymiş maddi ziyanla bağlı, həmçinin yazdığınız yazı silinibsə o zaman dəymiş mənəvi ziyanla bağlı məhkəməyə müraciət etməlisiniz. "Bakıelektrikşəbəkə" sizə dəymiş həm maddi, həm də mənəvi ziyana görə təzminat ödəməlidir. Məsələn, siz bir saat vaxt sərf edərək yazı yazmısınızsa və o yazı işığın qəflətən sönməsi nəticəsində pozulubsa, siz sarsıntı keçirə bilərsiniz. Belə sarsıntı nəticəsində sizə əslində mənəvi ziyan da dəymiş olur. Bu barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin 3 noyabr 2008-ci il tarixli mənəvi ziyana görə dəymiş zərərin ödənilməsi barədə məhkəmə təcrübəsi haqda plenium qərarı var. "İnhisarçılıq fəaliyyəti haqqında" Qanununun tələblərinə görə bazarda payı 33 faizdən artıq olan şirkətlər inhisarçı şirkətlər sayılır. "Bakıelektrikşəbəkə", "Azəriqaz", "Azərsu" inhisarçı şirkət sayılır. Ona görə də bunlar istehlakçılarla müqaviləni özləri tərtib edirlər. Bunlar istehlakçıya sərf edən şərtləri müqavilədə göstərmirlər. Amma yenə də deyim ki, hər bir halda sizə dəymiş həm maddi, həm də mənəvi ziyanın ödənilməsi ilə bağlı məhkəməyə müraciət etmək olar və dəymiş ziyanın "Bakıelektrikşəbəkə" tərəfindən ödənilməsini tələb etmək mümkündür".

❑ Günel MANAFLI

# "Mehman Hüseynov 1-2 günə qayıdacaq"

## Emin Hüseynovun harada olduğunu isə heç qardaşı da bilmir...

**"Mehman Hüseynovun durumu yaxşıdır, bir-iki günə işinə qayıdacaq". Bu sözləri müsavat.com-a açıqlamasında Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) hüquqşünası Günay İsmayılova bildirib.**

Onun sözlərinə görə, Mehmanla iki gün öncə əlaqə saxlayıb və o, hər şeyin qaydasında olduğunu söyləyib. RATİ rəhbəri Emin Hüseynova gəlincə, əməkdaş hələ ki, ondan xəbər-ətər olmadığını bildirib: "Hətta qardaşı Mehman Hüseynov belə onun harada olduğundan xəbərsizdir. O da nə olduğunu bizdən soruşur".

Qeyd edək ki, artıq fəaliyyəti dayandırılan RATİ əməkdaşları bir-bir prokurorluğa çağırılaraq dindiriliblər. Avqustun 14-də Günay İsmayılova, ötən gün isə təşkilatın mühasibi Tanya Kryuçkina Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində dindirilib.

musavat.com-a açıqlamasında Tanya Kryuçkina bildirdi ki, ona mühasibatlıq işi ilə bağlı suallar verilib, müəyyən sənədlər barədə sorğu-sual aparılıb. Onun sözlərinə görə, ona rəhbərlik haqqında da suallar verilib və hələlik bu haqda danışmaq istəmir. Qeyd edək ki, dindirmələr davam etdiyindən RATİ-nin hər iki əməkdaşına ölkədən çıxmaq qadağan olunub.

**RATİ-nin ofisi avqustun 11-də Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin əməkdaşları tərəfindən möhürlənib və təşkilat fəaliyyətini dayandırıb.**

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014

# Rəsul Mürsələv Gürcüstanda səfirliklərdən birinə sığınıb

## "Təhlükəsizlik baxımından, yerimi deyə bilmərəm, ölkəyə qayıtsam, həbs edilərək ömürlük alacam"


Rəsul Mürsələv

**Keçmiş vicdan məhbusu Rəsul Mürsələv avqustun 8-də ölkəni tərk edərək, Gürcüstandakı xarici ölkə səfirliklərindən birinə sığınıb. Bu barədə sosial şəbəkələrdə gənc fəalın özü məlumat yayıb. Bildirib ki, onunla bağlı Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) və 178-ci (dələduzluq) maddələri ilə cinayət işi açılıb.**

Dövlətə xəyanət maddəsinin irəli sürülməsinə səbəb kimi, Rəsul Mürsələvun 1-4 avqust tarixlərində Gürcüstanda keçirilən təlim çərçivəsində ermənilərlə görüşü əsas gətirilib. Dələduzluq maddəsi isə guya gənc fəalın 2008-ci ildə bankdan 1000 manat kredit götürməsi ilə bağlı irəli sürülüb.

Musavat.com-a açıqlamasında gənc fəal hazırda Gürcüstandakı xarici ölkə səfirliklərindən birinə sığındığını və ona qarşı cinayət işi açıldığını təsdiqləyib: "Sosial şəbəkələrdə yazılanlar həqiqətdir. Mənə qarşı artıq iki maddə ilə cinayət işi açılıb. Səbəb kimi, Gürcüstanda təlim çərçivəsində ermənilərlə görüş göstərilir. Təlim sülh danışıqları mövzusunda idi. Təlim 1-4 avqust tarixlərində müharibənin alovlandığı dövrə təsadüf etdi. Gürcüstandan qayıdandan sonra daim məni təqib edirdilər. Ailəmi də narahat etməyə başladılar. Açıqca ailəmə deyiblər ki, Rəsula qarşı iki maddə üzrə cinayət işi açılıb".

R.Mürsələv özünə qarşı cinayət işinin açılmasını siyasi fəallığı ilə əlaqələndirdi: "Yalandan deyirlər ki, 2008-ci ildə guya mən bankdan 1000 manat kredit götürmüşəm. Amma rayon qeydiyyatındayam və heç zaman kredit borcum olmayıb. Ölkədən çıxandan sonra yaşadığım kirayə evə mülkü geyimlilər gəlib və məni axtarıblar. Hazırda yerimi demək üçün ailəmə basqı edilir. Bütün bunların siyasi fəallığımla əlaqədar olduğunu düşünürəm. Əsas da Gürcüstandakı treninqdə sülh haqqında danışmağımdır. Treninqdə erməni nümayəndələrinə öz ölkələrində sülhü təbliğ etmələrini, eləcə də, öz ölkəmdə sülhü təbliğ edəcəyimi demişdim".

Gənc fəal ölkəyə qayıdacağı təqdirdə, ömürlük həbslə üzləşəcəyini də qeyd etdi: "Hazırda təhlükəsizlik baxımından, yerimi deyə bilmərəm. Yaxın günlərdə qəti qərarımı verəcəm. Burada səfirliklərin birinə sığınmışam. Ölkəyə qayıtsam, həbs ediləcəm. Bununla da ömürlük həbsdə qalacam. Yəqin ki, Avropaya gedəcəm. Azərbaycandan elə çıxmışam ki, hətta ailəmlə belə görüşə bilməmişəm".

**Qeyd edək ki, R.Mürsələv əvvəllər ADP-nın üzvü olub. 2012-ci ilin iyulun 18-də Balakəndə tutulub. Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmədə təqsirli bilinərək, 1 il 6 ay müddətində azadlıqdan məhrum edilib. Həbsxanada gənc fəal AXCP-yə keçib. Bu ilin yanvarında azadlığa çıxıb.**

❑ Cavanşir ABBASLI

# Başı kəsilən amerikalı jurnalistin yerinə olsaydınız...

**Ramil Məmmədli:** "Dostlarımın və tanışlarımın yaddaşında başsız kimi qalmaq istəmirəm"
**Alı Rza:** "O vəziyyətdə videomun çəkilməsini istəməzdim"
**Günel Əbilova:** "...Razı olmazdım"

**İŞİD üzvləri iki il əvvəl Suriyada qaçırılan amerikalı jurnalist Ceyms Foleyin başının kəsilərək öldürüldüyünü göstərən bir video yayımlayıblar. "Amerikaya mesaj" başlıqlı video sosial şəbəkədə nümayiş olunub. Videonun həqiqi olduğunu Amerika hökuməti təsdiqləyib. Videoda Ceyms Foley olduğu deyilən bir adam maskalı İŞİD-çi tərəfindən tutularkən görülür. İngilis ləhcəsi ilə danışan İŞİD-çi Foleyin ölümünün ABŞ-ın İraqdakı İŞİD mövqelərinə təşkil etdiyi hava hücumlarının birbaşa nəticəsi olduğunu söyləyir.**



Qeyd edək ki, beş ildir Yaxın Şərqdə çalışan Ceyms Foley 22 Noyabr 2012-ci ildə şəxsiyyəti naməlum silahlı şəxslər tərəfindən Suriyada qaçırılıb.

Xəbərin yayılmasının ardınca bu mövzuda müzakirələr də başlandı. Hadisənin yaratdığı vəhşilik şokundan daha çox bu məqamda jurnalistin yaşadığı anlar da maraq mövzusu oldu. Məsələn, onsuz da öldürüləcəyini bilən jurnalist bunun çəkilib dünyada yayılmasını istəyərdimi? Məlum, ondan bununla bağlı hər hansı razılıq alınmır. Bəs jurnalistin xəbərə münasibətini, hətta deyərdik, peşə xəstəliyini nəzərə alanda onun bu olaya münasibəti necə ola bilər?

**Minval.az saytının baş redaktoru İlkin Qəmbər** üçünsə bu hadisənin çəkilməsi arzuedilməzdir: "Öldürülən anımın çəkilməsini istəməzdim".

**"Azadlıq" qəzetinin əməkdaşı Alı Rza** isə hesab edir ki, bu məqamda seçim imkanı jurnalistin əlində olmur. Onun sözlərinə görə, İŞİD-çilər az qala bütün əməllərini çəkib yayırlar. Onlar sosial şəbəkələrlə, yeni media ilə işə xüsusi önəm verirlər: "Mən ümumiyyətlə bu cür vəhşi səhnələrin çılpaqlığı ilə nümayiş etdirilməsinin əleyhinəyəm. Əslində peşəkar jurnalistikada da, inkişaf etmiş media quruluşların təcrübəsində də bu yoxdur. Onlar qan, kəsilən baş, ölən adamın sifəti kimi insanlara pis təsir edə biləcək səhnələrin üzərini örtürlər. Amma mən xarici saytlardan birində gördüm o səhnəni, orda da jurnalisti edama hazırladıqları göstərilir, amma başının kəsilməsi göstərilmir".

A.Rza dedi ki, o vəziyyətdə videosunun çəkilməsini istəməzdi.

**Qafqazinfo.az saytının redaktoru Günel Əbilova** dedi ki, hazırda dünya o qədər virtuallaşıb ki, adi insan belə küçədə üzləşdiyi hər hadisəni videoya çəkib yaymaq istəyir: "Əlbəttə, o bunu çəkib asanlıqla facebook-da, İnstagramda yaya bilər. Çünki o, peşəkar deyil. Amma İŞİD və ya başqa terror təşkilatlarının acımasızcasına etdikləri kadrları yaymaq doğru deyil. Əslində bu cür nümunəni təəssüf ki, dünyaya demokratiya dərsi keçən ABŞ qoyub. Elə çox uzağa getməyək Səddam Hüseynin edam kadrları gözümüzün qabağındadır. Kimin və ya hansı tərəfə xidmət etməyindən asılı olmayaraq o cür zorakılığı, qəddarlığı, ölümü təbliğ edən kadrları yaymamalıyıq. Bu, bizim əlimizdədirsə, niyə də etməyək..."

G.Əbilova dedi ki, sözügedən nümunədə jurnalistin könüllü mövqeyi əks olunmur: "O, buna məcbur edilə bilər. Mənə gəlincə isə düşünürəm ki, razı olmazdım".

**Aznevs.az saytının redaktoru Ramil Məmmədli dedi ki, bu məsələyə birbaşa jurnalistika - xəbərçilik prinsipindən yanaşsaq amerikalı reportyorun addımını normal qəbul etmək olar. Məsələyə fərqli baxsaq, demək olar ki, amerikalı jurnalist ölümü ilə son xəbərini yazdı:** "Məsələyə mənəvi meyarlarla baxdıqda isə onun ölüm qabağı belə addım atması normal deyil. Lakin onun da nəzərə almaq lazımdır ki, girov jurnalist özü ilə bağlı heç bir qərar vermək iqtidarında olmayıb. Əgər mən belə bir vəziyyətlə qarşılaşsaydım və son xahişimin icra olunacağına əmin olsaydım, istəyim videonun çəkilməməsi olardı. Çünki dostlarımın və tanışlarımın - insanların yaddaşında başsız qalmağımı istəmirəm. İstənilən halda faciəli ölümümdən bu səpkili xəbər düzəldilməsini məqsədəuyğun hesab etmirəm".

❑ Sevinc TELMANQIZI

# Bakıda növbəti mənzil qalmaqalı

## Özünü dindar kimi qələmə verib ev satan şəxs mülkünə görə aldığı pulun 26 min manatını "Topaz"da uduzub; Təhməzovlar ailəsi pullarını kimdən alacaqlarını bilmirlər

**Şəhid ailələri üçün nəzərdə tutulmuş evi almaq istəyən Təhməzovlar ailəsi indi ödədikləri pulu geri ala bilmir. Bununla bağlı "Yeni Müsavat"ın redaksiyasına şikayət edən Aysel Təhməzova deyir ki, bir ilə yaxındır ki, Nahid Həşimov adlı şəxs onlardan aldığı pulun 26 min manatını geri qaytarmır. A.Təhməzovanın sözlərinə görə, hadisə belə baş verib:**




2013-cü ilin oktyabr ayında Təhməzovlar ev almaq üçün mənzil bazarına gediblər. Orada maklerlər vasitəsilə evini satmaq istəyən Nahid Həşimov adlı şəxslə tanış olublar. N.Həşimovun Nərimanov rayonu, Əhməd Rəcəbli küçəsi 46 V binanın 34 saylı mənzilinə baxdıqdan sonra evi 60 min manata almağa dair razılığa gəliblər, elə həmin gün Təhməzovlar N.Həşimova 2000 manat beh veriblər. Növbəti gün alqı-satqı əməliyyatını həyata keçirmək üçün notarial qaydada müqavilə bağlayan tərəflər evin sənədlərinin qaydasında olmaması səbəbindən borc müqaviləsi bağlayaraq ödənilən 60 min manatı rəsmiləşdiriblər. Müqavilənin şərtinə görə, İsmayıl Təhməzov Nahid Həşimova bir ay müddətinə 60 min manat borc verir. Bir ay müddətində Həşimovlar evi boşaldıb Təhməzovlara təhvil verməli imiş.

Bir aydan sonra da evin sənədlərinin düzəlməməsi şifahi alqı-satqı razılaşmasını pozub və İ.Təhməzov 60 min manatı geri istəyib.

**Aysel Təhməzova deyir ki, Nahid Həşimov bir aydan sonra onlara 34 min manat pulu geri qaytarıb:** "Geriyə qalan 26 min manatı isə bir ilə yaxındır ki, ala bilmirik. Səhv bizdə oldu ki, ona inanıb alqı-satqı müqaviləsi yox, borc müqaviləsi bağladıq, özünü dindar adam kimi təqdim edib bizi aldatdı. Bu ilin yanvar ayında məcbur olub, Nahid Həşimovdan Xətai Rayon Polis idarəsinə şikayət etdik. Polis də onun lehinə qərar çıxarıb. İndi həmin adam həbsdədir. Biz pulumuzu kimdən alacağımızı bilmirik".

**Qeyd edək ki, sözügedən mənzil 2009-cu ildə Nərimanov RİH tərəfindən Həşimova Aygün İmran qızına verilib və orada Nahid Həşimov yaşayıb.** Cinayət işini aparan Xətai RPİ-nin İstintaq Şöbəsinin müstəntiqi Səbuhi Mehbalıyev prosesdə aldatma faktının olmadığını və Nahid Həşimovun 26 min manat pulu xərclədikdən sonra imkansızlıqdan bu məbləği ödəyə bilmədiyi qərarına gəlib və işə xitam verib.

İndi Təhməzovlar 26 min manat pulu geri ala bilmədiklərini və Xətai Rayon Prokurorluğuna müraciət edəcəklərini deyirlər.

Nahid Həşimovun kimliyini və onun bu prosesdə nə dərəcədə təqsirli olduğunu müəyyənləşdirmək üçün yaxın qohumları ilə əlaqə saxlamağa çalışdıq. N.Həşimovun həyat yoldaşı ilə əlaqə saxlamaq mümkün olmadı. Prosesin şahidlərindən biri olan N.Həşimovun qaynının yoldaşı Samirə Muradova bildirdi ki, Nahidin yoldaşının bu hadisədə heç bir günahı yoxdur: "Nahidin həmin ailəyə borclu olması doğrudur. Ancaq xanımının bu işlə əlaqəsi yoxdur. İndi Nahid həbsdədir. Banklara da külli miqdarda borcu var. Yoldaşım hər ay aldığı maaşı aparıb onun borclarına ödəyir, ailənin maddi yükünü də biz çəkirik."

**Samirə Muradovanın sözlərinə görə, Təhməzovlar ailəsi də tez-tez onları narahat edir, ancaq baş verənlərə görə günahkar özləridir:** "Pulu verən adamın ağlı harada idi 60 min manatı tanımadığı adama heç bir sənədsiz verirdi? O insanın görünüşünə baxanda kim olduğu bəlli olur. Ona veriblər pulu, o da aparıb "Topaz"da uduzub, sonra da həbs olunub. O, tüfeyli həyat keçirən bir insandır, aldığı pulu da sağa-sola səpir, ailəsinə heç bir pul vermir, biz baxırıq onlara da".

**N.Həşimovun özünü dindar kimi qələmə verib Təhməzovların inamını qazanmasına gəlincə, Samirə xanım deyir ki, o adamın din haqqında heç bir anlayışı yoxdur, tüfeyli həyat keçirən bir adamdır, sadəcə ailəni aldatmaq üçün bu yola əl atıb.**

Redaksiyamıza daxil olan şikayətlə bağlı, gün ərzində Xətai Rayon Polis İdarəsinin baş leytenantı Səbuhi Mehbalıyevlə əlaqə saxlamağa çalışsaq da bu, mümkün olmadı. Onun cinayət işinin icraatına xitam verilməsi ilə bağlı qərarın sonluğunu təqdim edirik:

**"İstintaq zamanı toplanmış sübutlar əsasında müəyyən edilmişdir ki, Həşimi Nahid Natiq oğlu Nərimanov rayonu, Ə.Rəcəbli küçəsi 46 V, 34-cü mənzildə, qanuni əsaslarla yaşamış, həmin mənzilə varislik hüququ olmuşdur. Yaşadığı evi satmaq istəməsi əməliyyatında alıcıya qarşı etibarından sui-istifadə etməmiş, mənzilin qeydiyyat şəhadətnaməsinin olmadığını, mənzilə dair yalnız orderin olduğunu İsmayılov Təhməzova demiş, hər ikisinin birlikdə səyləri nəticəsində, qeydiyyat şəhadətnaməsinin bir ay müddətində alınmasını güman etdiyindən, mənzilin satılması borc müqaviləsi formasında rəsmiləşdirilməsinə icazə vermişdir. Bir ay müddətində ondan asılı olmayan səbəblərdən şəhadətnamənin alınması mümkün olmadığından və borc adı ilə aldığı pulun bir hissəsini şəxsi ehtiyac üçün xərclədiyindən pulun 34 min manatını İ. Təhməzova qaytarmış, qalan 26 min manatı isə, aldatma niyyəti olmadan qaytarmasına söz vermişdir. Lakin maddi imkanı olmadığından qaytara bilməmişdir. Qeyd olunanlar əsasən, N. Həşimovun hərəkətlərində cinayət tərkibi olmadığından fakt üzrə başlanılmış cinayət işinin icraatına xitam verilmişdir".**

❑ Nərgiz LİFTİYEVA

# Partiyalar bələdiyyə seçkilərinə ciddi yanaşmır

## Səsverməyə 4 aydan az qalıb, amma ölkədə seçki ab-havası yoxdur

**Dekabr ayında Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Bələdiyyələrlə bağlı son bir ay ərzində dövlət başçı İlham Əliyev sərəncamlar verib. Bu sərəncamlara əsasən bir sıra qanun və normativ hüquqi aktlara dəyişiklik edilib. Dövlət başçısının imzaladığı hüquqi sənədə görə ilin sonunda keçiriləcək seçkilərdə yüzdən artıq bələdiyyənin birləşdirilməsi həyata keçiriləcək.**



Bələdiyyələr yaradıldıqdan indiyədək sayca dördüncü dəfə keçiriləcək bu seçkidən sonra ölkəmizdə formalaşacaq yerli özünü idarəetmə qurumlarının sayı 1605 olacaq. Bununla da ölkəmizdə birləşdirilən bələdiyyələrin sayı 1131-ə çatıb. Qeyd edək ki, ilk sayı 2736 olan bələdiyyələrin sayı 41 % azaldılıb.

Ölkədə isə hazırda bələdiyyə seçkilərinə hazırlıq ab-havası müşahidə olunmur. Seçkilərə maraq o dərəcədə aşağıdır ki, ölkənin aparıcı müxalifət təşkilatlarının əksəriyyəti hələ bələdiyyə seçkiləri ilə bağlı qərar verməyib.

**AXCP rəhbərliyi bəyan edib ki, ölkədə normal seçki şəraiti yoxdur, bələdiyyələr icra hakimiyyətinin bir şöbəsinə çevrilib.** Ona görə də bələdiyyə seçkilərində iştirak etmək seçki tamaşasına legitimlik qazandırmaqdan başqa bir şey deyil.

Müsavat Partiyası isə bələdiyyə seçkilərində iştirak etmək barədə ilkin qərar verib. **Müsavat Partiyası başqanının müşaviri Mustafa Hacıbəyli** bildirdi ki, partiyada bələdiyyə seçkilərinə hazırlıqlar gedir: "Müsavat Partiyası həm namizədləri ilə iştirak eləmək, həm də müstəqil namizədlərin içərisindən kimlərisə müdafiə eləmək xəttini tutacaq. Namizədlərin siyahısı isə hələlik müəyyənləşməyib".

**M.Hacıbəyli ölkədə demokratik seçki üçün şəraitin olmadığını, bələdiyyələrin isə icra hakimiyyətinin bir şöbəsinə çevrildiyini bələdiyyə seçkilərinə cəmiyyətin marağını azaltdığını vurğuladı:** "Cəmiyyətdə bələdiyyələrə və bələdiyyə seçkilərinə maraq yoxdur. Bununla belə, Müsavat Partiyası seçkiləri mübarizənin əsas üsulundan biri saydığı üçün bələdiyyə seçkilərində iştiraka qərar verib".

**Vətəndaş Həmrəyliyi Partiyası (VHP) mərkəzi icra aparatının rəhbəri Samir Əsədli** partiyanın siyasi Şurasının 2014-cü ilin dekabrında keçiriləcək bələdiyyə seçkilərində iştirak etməklə bağlı qərar qəbul etdiyini bildirdi: "Artıq partiyanın bələdiyyə seçkilərində iştirakı ilə bağlı seçki qərargahı da formalaşdırılıb. Partiya sədrinin müavini Arif İsmayılbəyli seçki qərargahının sədri təyin edilib. Seçki qərargahının üzvləri də təyin olunub və seçkiyə hazırlıq işləri aparılır.

Biz son vaxtlar VHP-in bütün rayon təşkilatlarında konfranslar, görüşlər keçirmişik. Biz ilkin olaraq bütün seçki dairələri üzrə namizəd irəli sürmək niyyətindəyik. Hansı bələdiyyələrə kimlərin namizəd sürülməsi isə müəyyənləşdirilir. Planlaşdırırıq ki, sentyabrın sonuna ilkin siyahımız hazır olsun".

**S.Əsədli təəssüflə qeyd etdi ki, ölkədə seçki ab-havası, insanların bələdiyyə seçkilərinə marağı yoxdur:** "Bu vəziyyət onunla bağlıdır ki, seçkilərin demokratik keçiriləcəyinə inam yoxdur, bələdiyyələrin ciddi səlahiyyəti yoxdur, bələdiyyələr icra hakimiyyətinin təsiri altındadır. Bələdiyyələrə ciddi maraq olmaması seçki kampaniyasına mənfi təsir edir. Azərbaycanda təəssüf ki, bələdiyyələrin statusu, səlahiyyəti son dərəcə cüzidir. Bələdiyyələr faktiki olaraq icra hakimiyyətlərinin qapazaltı orqanına çevrilib. Bələdiyyənin elementar səlahiyyəti yoxdur ki, nəyisə həll eləsin. Belə olduğu üçün də vətəndaşda bələdiyyə seçkisində həm namizəd, həm də seçici kimi iştiraka maraq qalmır. Buna görə də siyasi partiyaların üzvlərinin də bələdiyyə seçkilərinə marağı azalır. Bir çox insanlar bu prosesdə iştirakı mənasız vaxt itkisi sayır. Hazırda seçki komissiyalarında üstünlüyün YAP-da olduğunu və demokratik seçki mühitinin olmadığını nəzərə alsaq bu gün üçün söyləyə bilərik ki, seçkilər demokratik keçirilməyəcək. Ancaq hər bir halda siyasi partiyanın işi seçkilərdə iştirak edib mübarizə aparmaqdır".

**ADP sədri Sərdar Cəlaloğlu** isə seçkidə partiya kimi iştirak barədə qərarlarının olmadığını bildirdi. S.Cəlaloğlu qeyd etdi ki, bələdiyyə seçkilərində iştirak etmək istəyən ADP üzvlərinə fərdi şəkildə namizədliklərini irəli sürməkdə azadlıq verilib.

**AMİP-dən də bildirildi ki, bələdiyyə seçkilərində iştirak və hazırlıqla bağlı qərar verməyiblər.**

Bələdiyyələr üzrə ixtisaslaşmış QHT-lər də bələdiyyələrə cəmiyyətin marağının az olmasını təsdiqləyirlər.

"Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyi Azərbaycan Respublikası Prezidentinin yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən "2014-cü il - bələdiyyə seçkilərində gənclərin və qadınların aktivliyinin artırılması məqsədi ilə hüquqi biliklərinin aşılanması və maarifləndirmə işinin təşkili" layihəsi çərçivəsində Bakının Suraxanı rayonunda və Şamaxı şəhərində sorğu keçirib. Hər birində 50 nəfər olmaqla, cəmi 100 nəfəri əhatə edən sorğunun əsas məqsədi əhalinin seçki ilində bələdiyyə sisteminə olan münasibətini öyrənmək olub. Ümumən rəyi sorulanların 42 %-i mövcud hüquqi-normativ aktları təkmil hesab etmirlər. Bununla yanaşı 32%-i icra strukturlarının müdaxiləsini, 28%-i gənclərin və qadınların bələdiyyə sistemində çatışmazlığını, 30%-i qanunvericilikdə olan boşluqları və 10%-i isə bələdiyyə üzvlərinin qeyri-peşəkarlığını bələdiyyələrin daha çox aktiv fəaliyyət göstərməsinə mane olan amil kimi göstərmişlər.

❑ **Etibar SEYİDAĞA**

# Hacı Qalib icra başçısının qarşısından geri çəkildi

## Deputat: "Artıq aramızdan su da keçmir"

**Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyevlə bu rayonu təmsil edən deputat Hacı Qalib Salahzadə arasında yaranmış gərginlik səngiyib. Bir gün öncə icra başçısı ilə deputat arasında olan telefon danışığı nəticəsində mübahisəli vəziyyətə nöqtə qoyulub. Bu barədə Hacı Qalib "Yeni Müsavat"a açıqlamasında bildirdi.**

Onun sözlərinə görə, Bilgəh əhalisi ilə də söhbət edib: **"Heç bir narazılıq yoxdur, bütün problemlər həll olunub, camaat da yerdən göyə qədər razıdır. Hər şey qaydasındadır, hər hansı problem qalmayıb. Camaatı da başa saldıq ki, vaxtilə nə problemlər olubsa, həllini tapıb. Hazırda Bilgəhdə heç bir problem yoxdur. Hər şey öz axarı ilə gedir. Camaat əvvəl başqa cürə başa düşmüşdü. İndi görürlər ki, belə lazımdır və problem yoxdur".** Q.Salahzadənin sözlərinə görə, sakinlərin bəzi nümayəndələri yeni icra nümayəndəsi ilə görüşüb və onu təbrik ediblər: **"Mən özüm də Adil müəllimlə danışdım. Problemlər həll olundu. Artıq aramızdan su da keçmir".**

Qeyd edək ki, bir gün öncə Hacı Qalib qəzetimizə çox kəskin danışmışdı. O, zəngilanlı icra nümayəndəsinin Bilgəhi tanımadığını və bu səbəbdən normal işləyəcəyinə inamının olmadığını demişdi. İcra başçısı isə dolayısı ilə deputatı prezidentin siyasətinə qarşı çıxmaqda ittiham etmişdi. Ola bilərmi ki, Hacı Qalib təzyiqlər nəticəsində geri çəkilib? O özü cavabında bunu inkar etdi: "Mən iradları qəbul edən adamam. Ancaq heç kim mənə təzyiq göstərə bilməz. Səhv edəndə də kişi kimi deyirəm ki, səhvim olub. Artıq məsələ geridə qalıb, camaat öz işi ilə məşğuldur".




**Xatırladaq ki, konfliktin yaranmasına səbəb Kürdəxanı, Bilgəh və Pirşağı sakinlərinin icra başçısından deputata şikayət etməsi olmuşdu.** Yayılan xəbərdə deyilirdi ki, icra başçısını sakinlərin problemlərini həll etməyə çağıran deputat hədəf götürülüb və rayondakı bütün qurumlara Hacı Qalibin əleyhinə iş aparmaq tapşırığı verilib. Sabunçu Rayon İcra Hakimiyyətindən isə belə bir açıqlama verilmişdi: **"İcra başçısı Adil Vəliyev Bilgəh qəsəbəsində hazırda baş alıb gedən anti-sanitar vəziyyət və abadlıq-quruculuq işlərinin zəif getməsi ilə bağlı Bilgəh qəsəbəsi üzrə icra nümayəndəsini dəyişmək qərarına gəlib. İddia olunurdu ki, Qalib Salahzadə bu məsələyə qarşı çıxaraq, bildirir ki, icra nümayəndəsi mütləq bilgəhli olmalıdır".**

❑ **ELŞAD**

# Yenə zəngəzurlu olsaydı...



**Samir SARI**

**Saytlardan, qəzetlərdən oxumuş olarsınız, Bilgəhdə İH nümayəndəsinin təyinatı "yerlilər-gəlmələr" nifaqı yaradıb. Bilgəhlilər başda doğma deputatları Hacı Qalib olaraq ayağa qalxıblar ki, qəsəbənin böyüyü yerli adam olsun. İH başçısı da deyir, bu vəzifəni mənə cənab prezident etimad göstərərək verib, mən də bu adama etimad göstərirəm.**

İndi bilgəhlilər çayxanada, orda-burda "yadellilərin istilası"ndan danışırlar, deyirlər, zəngilanlı niyə gəlib bizim kəndin ağsaqqalı olmalıdır, getsin, işğal altında qalan torpaqlarını azad eləsin, oranın rəhbəri olsun. Hacı Qalib elə deyir və özünü hazırda Babək Xürrəmidin kimi aparır.

Bu isə İH başçısı Adil Vəliyevin xətrinə dəyir, deyir, hamımız bu vətəninin oğluyuq, nə fərqi var kim haradandır.

Əlbəttə, İH başçısı düz deyir, kimin haradan olmasının elə də fərqi yoxdur, kadr siyasətində yer-yurd söhbəti nəzərə alınmasa, yaxşı olar. Məsələn, elə bu prizmadan yanaşsalar, bilgəhlinin Bilgəhdə rəhbər vəzifə tutmasına da təhəmmül etmək olar. Qoy bir dəfə də müdir özlərindən olsun, nə olacaq, nə fərqi var?

**Doğrudan da, nə fərqi var ki, seçkilərdə irəli durub seçkini yerli kadr saxtalaşdıracaq, yoxsa gəlmə kadr? Rüşvəti doğulma-böyümə bilgəhli yığacaq, yoxsa Zəngilanda, Naxçıvanda doğulub-böyümüş birisi?**

Əslində, bu məsələnin camaata, kütləyə o qədər də dəxli yoxdur, əsasən yığılacaq rüşvətdə, satılacaq torpaqlarda gözü olanlar üçün fərqi var. Onlar da haqlı olaraq fikirləşirlər ki, niyə öz camaatımızın rüşvətini özümüz almayaq, hansısa bir yadelli, məsələn, zəngilanlı gəlib alsın.

Orası da var ki, həmin yadelli zəngilanlı yox, məsələn, zəngəzurlu və ya şərurlu olsaydı, məsələnin məğzi xeyli dəyişərdi. Onda deputat Salahzadənin dəstəsi indiki kimi ötkəm olmaz, həmin kadrın üstünə getməzdilər.

Razılaşaq ki, zəngilanlı olmaqla zəngəzurlu olmaq eyni şey deyil. Düzdür, torpaq eyni torpaqdır, arada böyük məsafə də yoxdur, bir qəlbi yal-yamac var, amma zəngəzurlu, şərurlu olmaq siyasi məsələdir, zəngilanlı olmaq isə coğrafi anlam daşıyır.

**Ona qalsa Naxçıvanda, Göyçədə, Vedidə doğulmuş İH başçıları, rəislər, prokurorlar, hakimlər, gömrükçülər və sair pullu vəzifələrin yiyələri A(ğstafa)-dan Z-yə (Zərdab) qədər bütün rayonlarda çalışırlar, amma onlara qarşı "bunt" eləyən yoxdur, eləcə, olsa-olsa bəzi çayxanada dallarınca aşağı desibelli söhbətlər gedir.**

Amma vəzifə yiyəsi zəngilanlı olanda, vəziyyət dəyişir. Hətta o adam şükür eləsin ki, zəngilanlıdır, köçkündür, yaralıdır, yoxsa daha pis olardı. Salyandan, Ucardan, Şabrandan olsa, deyərdilər, booy, harda görünüb ki, ucarlı gəlib Bilgəhdə İH nümayəndəsi olsun. Sədərəkdən, Babəkdən olsa, başqa məsələ, amma şabranlı gəlib Bilgəhdə vəzifə tutacaq - olacaq işdirmi bu? Hər şeyin bir əndazəsi, təhər-tövrü, yol-yöndəmi var, hər kəs öz yerini, həddini biləcək.

Hələ indi yaxşıdır, 6-7 ildir mahalbazlıq, yerlibazlıq söhbəti o qədər də aktual deyil. Arada başqa yerlərdə təvəllüd tapanlardan da vəzifəyə qoyulanlar olur. Amma vaxt vardı, birinci sinifin sinifkomlarından tutmuş ta baş nazir və səhiyyə nazirinə qədər bütün vəzifələrin eyni mahallarda doğulanlardan ibarət olmasını təşkil etmək istəyirdilər.

Camaat orda-burda narazılıq edirdi, qımıldanırdı, "regionçuluq pis şeydir" deyə etiraz edirdilər. Amma ölkədəki vəzifələrin 80 faizinə yaxın civarda bütün postları qamarlamış kastanın fəalları da ortaya yeni ifadə atdılar, "antiregionçuluğu" haram elan etdilər və bəzi adamları bu cür damğaladılar. Artıq biri deyəndə ki, niyə bizim rayonda bütün vəzifəlilər ölkənin 400 kilometr o tərəfində yerləşən bir kəndin uşaqlarıdır, onlara deyirdilər, susun, antiregionçuluq eləməyin, milləti bölməyin.

Adamlar da məcbur olub susurdular, çünki qarşısında "anti" olan sözlərdən qorxurdular. Azmı adamları "antisovet", "antipartiya", "antipod" deyə cəzalandırmışdılar?

**Sonradan vəziyyət dəyişdi və yavaş-yavaş dəyişməkdədir. İndi Bilgəh camaatı gərək ocağın üstünə benzin atmasın. Bu məsələ yenidən yoğunlasa, Gömrük Komitəsində eyni kənddən olan yüzlərlə kadrın xətrinə dəyəcək.**

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014



# Hər kəsin öz arşını...

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Həbslər sıralanır, dərhal bunun ardınca Avropanın, ABŞ-ın dövlət qurumlarından, beynəlxalq təşkilatlardan, hətta BMT-dən də etirazlar gəlir. Azərbaycanın bu qurumları saya salmadığını demək sadəlövhlük olardı. Ən azından ona görə ki, siyasi aləmdə Azərbaycanın mənafeyinə toxunan ciddi bir hadisə baş verəndə hakimiyyət dərhal istinad kimi onlara müraciət edir... Bəs nədən onların da bizim ölkəmizə yönələn tələbləri qulaqardına vurulur...**

Hakimiyyətin hədəfə aldığı QHT-lər də belə qurumlarla birbaşa və ya dolayısı ilə daim təmasda olublar. Bəs nədən Qərb ölkələri öz tələblərində ardıcıl deyillər. Çox vaxt dövlət rəsmilərinin səsləndirdiyi bəyanatlara qarşı deyilənlər də bütün əndazələri aşır: "Azərbaycan müstəqil siyasət yürüdür, heç kim onun daxili işlərinə qarışa bilməz və s."

Nə baş verdi. Axı 10-15 il əvvəl belə ritorika yox idi. Bütün təqiblər sonda Qərbdən gələn demokratiya səddinə dirənirdi... Bu günə qədər şahidi olmuşuq ki, yüzlərlə siyasi məhbus məhz bu səbəbdən azad edilib. Sonda geri çəkilən məhz bu rejim olub...

İlk baxışdan elə görünür ki, Qərb ölkələri Azərbaycandakı hakimiyyətə təsir imkanlarını itirib, ya da beynəlxalq qurumların fəaliyyətində ciddi dəyişikliklər baş verib...

Məsələ həm də psixoloji çalarlara söykənir. Ətrafımızdakı ölkələrə diqqət yetirin - görün nə qədər ciddi dəyişikliklər baş verib. Ən azından 12-13 il əvvəl qonşu Gürcüstan bütün əlamətləri ilə Azərbaycandan fərqlənmirdi. Bu gün isə biz daha çox bizi ayıran cəhətləri dilə gətiririk. İndi hər bir Azərbaycanlı bu qonşu ölkəyə gedib-gələndən sonra oradakı qaydalardan həsəd dolu söhbət açır. Açıq-aşkar görünür ki, gürcülərlə müqayisədə biz pessimist bir əhvala köklənirik. Onlar isə tamam fərqli dəyərlərə söykənirlər.

Hətta avtoritar idarəçiliyin böyük dayağı olan, bizim tarixi ərazilərimizi zəbt edən Ermənistanda vəziyyət fərqlidir: ölkənin siyasi palitrasında müxalifət öz mövqelərini qoruyub, bütün siyasi spektr parlamentdə təmsil olunur, hakimiyyətə qarşı ictimai müqavimət mövcuddur...

Nədən biz bu qədər demokratik dəyərlərdən uzaq düşdük? Nədən siyasi müxalifət meydanı boş qoydu və hakimiyyətin öz təbəələri ilə belə sərt rəftarına göz yumdu...

Son prezident seçkilərindən az qala bir il ötür. Bu bir il siyasi mühitdəki durğunluq, bir o qədər hakimiyyətin aqressivləşməsi ilə yadda qalıb. Hətta bu qədər kütləviləşən həbslərdən sonra heç bir etiraz aksiyasının keçirilməməsi də maraq doğurur. Məhz buna görə Qərbin demokratik təsisatları iş birliyində olduğu QHT-lərə də açıq dəstək verə bilmir.

Bu gün həmin QHT-lərin bu rejim üçün təhlükə mənbəyi olduğunu demək də acı gülüş doğurur. Olsa-olsa, korrupsioner klanların istədiyi kimi dövran sürməsinə qarşı zəif müqavimət göstərirdilər. Elə vətəndaş cəmiyyəti formalaşmadığından bu QHT-lər də ictimai maraq dairəsində deyildilər. Onlara rəhbərlik edənləri isə məhdud dairədə tanıyırdılar. Amma bütün bunlara baxmayaraq, beynəlxalq qurumların indiki durumla barışmağı da suallar doğurur. Məhz onların öz tələblərini həyata keçirmək tələbləri cəmiyyəti siyasi dalandan xilas edə bilər. Bunu hakimiyyət dairələri də yaxşı bilirlər və bütün hallarda özlərini elə aparırlar ki, bütün bu tələblər onlar üçün heç bir əhəmiyyət kəsb etmir...

Daxili durumdakı durğunluq ilk baxışdan rejim üçün arxayınçılıq yaratsa da, ən azından ətrafımızdakı ölkələr kimi demokratik dəyərlərə istinad edib yaşamaq istəyənlər daha fərqli, effektiv yollar arayır. Artıq bu ölkədə təqiblər, həbslər bütün dözüm hədlərini aşıb. Böyük talanı gizlətmək üçün yaradılan asan xidmət dekorasiyası da köməyə yetmir...

Korrupsiya sonuncu resursları dişinə çəkir. Artıq Azərbaycan oliqarxları arasında bölünməli heç nə qalmayıb. Buna görə də savaş içə yönəlib. Bir il əvvəl öz milyardları ilə öyünənin bu gün müflisləşməsi da adi bir olay deyil, iç savaşın üzə çıxan əlamətidir.

**İndi ölkədə I Olimpiya oyunlarına hazırlıq ajiotajı yaşanır. Biz bu axarda nə qədər pulun göyə sovrulduğunun fərqində deyilik. Amma bu oyunlardan az sonra onun bütün fəsadlarını hiss edəcəyik. Bu qədər günahsız insanın həbsxanalara atıldığı bir ölkədə məhz Avropa məkanındakı ölkələrin bütün baş verənlərə göz yumub olimpiya yarışlarına qatılacağı da xeyli suallar doğurur.**

**İyulun sonları, avqustun əvvəllərində Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində yaşanan gərginlik artıq səngiyib. Düzdür, atəşkəsin pozulması halları davam edir və vəziyyətin tam stabil olduğunu demək mümkün deyil. Lakin hər iki tərəfin itkilər verməsi ilə müşayiət olunan durumdan fərqli olaraq atəşkəsin pozulması halları minimuma düşüb.**

# Azərbaycan ərazilərini azad etmək şansını əldən verdi?



**Vəfa Quluzadə:** "Yaranmış vəziyyət heç də Azərbaycanın şansı deyildi..."



**Azad İsazadə:** "Hərbi əməliyyatlar başlayacağı halda ən uzağı bir həftə-10 günə yekunlaşmalıdır"



**Etimad Əsədov:** "Növbəti şansı əldən qaçırdıq..."

Bəzi müşahidəçilər hələ də hesab edir ki, düşmənin azğınlığının son həddə çatdığı həmin günlərdə Azərbaycanın öz torpaqlarını azad etməsi üçün böyük bir şans yaranmışdı. Həmin günlərdə əhalinin böyük əksəriyyətinin savaşa köklənməsi, düşmənə qarşı nifrət hissinin xeyli artması, kütləvi şəkildə cəbhəyə yazılmaqla bağlı təşəbbüs və çağırışların, rəsmi qurumlara müraciətlərin olması, iqtidarda, ya müxalifətdə olmasından asılı olmayaraq hər kəsin Qarabağın azadlığına hazır olduğunu bildirməsi savaş qərarının verilməsi üçün münbit şərait yaratmışdı. Paralel olaraq bir sıra beynəlxalq şərtlər, xüsusilə də Rusiyanın Ukrayna bataqlığına düşməsi, dünya güclərinin Yaxın və Orta Şərqdə baş verənlərə müdaxilə etməkdən belə yayınması təcavüzə məruz qalan Azərbaycana savaş qərarı vermək şansını vermişdi. Ancaq fərqli düşünənlər, xüsusilə də Rusiyanın Ermənistana hərbi dəstək verdiyini xatırladıb Azərbaycanın Gürcüstan və Ukraynanın faciəsini yaşamamasından ötrü daha bir neçə il, ən azı Rusiyanın zəifləməsi şəraitini gözləməyi məqbul sayanlar da var.

**Politoloq Vəfa Quluzadə** yaranmış vəziyyəti heç də Azərbaycanın şansı hesab etmir: "Mən yenə o fikirdəyəm ki, cəbhədə təxribatı törədən Rusiya oldu. Rusiya üçün orda böyük bir hadisə lazım idi ki, prezidentləri öz yanına - Soçiyə dəvət etsin. Əgər Azərbaycan torpaqlarını azad etməyə qərar vermiş olsaydı, savaş davam edəcəkdi, Soçi görüşü olmayacaqdı və geniş miqyaslı müharibə baş verəcəkdi. Azərbaycan onda gərək bu təxribatdan sonra ermənilərin bütün nöqtələrinə zərbə endirəydi. Ancaq Azərbaycan bunu etmədi. Çünki Ermənistan Rusiyanın əlində bir oyuncaqdır. Biz bu oyuncaqla müharibə edə, onu darmadağın edə bilmərik. Çünki arxasında nüvə dövləti olan nəhəng Rusiya var. Rusiya olmasaydı, bu oyuncaq bizim torpaqlarımızda otura bilməzdi. Baxın, Rusiya azğınlıq edir, ancaq NATO Rusiya ilə müharibəyə girişmir. Ona görə də bu, Azərbaycanın şansı deyildi".

**V.Quluzadə Azərbaycanda müharibəyə çağırış edənləri iki kateqoriyaya bölməyin tərəfdarıdır:** "Əhali artıq 22 ildir torpaqların azadlığını gözləməkdən bezib. Mən bu gün Mərdəkanda bir qaçqınla danışmışam. Soruşurdu ki, Vəfa müəllim, bu vəziyyət nə qədər davam edəcək, bizim gözəl torpaqlarımız, meşələrimiz, dağlarımız nə vaxt azad olunacaq? Adamın ürəyi ağrıyır. Bəli, xalq istəyir ki, biz gedək torpaqları azad edək. Ancaq burda başqaları da var. Söhbət Rusiyanın xeyrinə işləyən 5-ci kolondan gedir. Onlar da istəyir ki, gedib müharibə edək, uduzaq, darmadağın olaq. Ona görə də məsələyə soyuqqanlı yanaşmaq lazımdır. Bu, Rusiyanın təxribatı idi və Soçi görüşünü təşkil etmək üçün törədilən, Azərbaycanı hədələmək üçün düşünülmüşdü".

**Hərbi ekspert Azad İsazadə** deyir ki, torpaqları azad etmək üçün fürsət həmişə var: "Biz hər bir məqamdan istifadə etməliyik, amma təbii ki, hazırlıqlı olmalıyıq. Texniki-hərbi baxımdan hazırıq. Söhbət siyasi vəziyyətdən gedir. Hərbi əməliyyatlara qərar veriləcəyi halda siyasi təzyiqlərlə rastlaşacağımız qaçılmazdır. Ukraynadakı vəziyyət Cənubi Qafqazdakı proseslərin diqqətdən uzaqlaşmasına gətirib çıxarıb. O mənada atəşkəsin ciddi şəkildə pozulduğu günlərdə məqamdan istifadə etmək olardı. Amma gördüyünüz kimi, Rusiya o saat Soçi görüşünü keçirdi və vəziyyəti nəzarətə almağa nail oldu".

**A.İsazadə bu qənaətdədir ki, hərbi əməliyyatlar başlayacağı halda ən uzağı bir həftə-10 günə yekunlaşmalıdır. Çünki bu müddətdən sonra Azərbaycan ciddi təzyiqlərlə üz-üzə qala bilər:** "Deməli, nə ediriksə, bir həftəyə etməliyik. Bu dəfə gərginlikdən sonra Azərbaycan ağır texnika və artilleriyanı cəbhəyə daşıdı. Deməli, Bakı hansısa əməliyyat və ya savaşa başlamağı planlaşdırmamışdı. Təyyarələri də havaya qaldırdılar, ancaq atəş açmadı. Bununla demək istədilər ki, sadəcə, vəziyyəti sabitləşdirmək və ermənilərin hansısa hücumunun qarşısını almaq istəyirlər. Belə məqamlar periodik olacaq və biz düşmənə cavab verməyə hazırıq. Amma əvvəlcədən siyasi baxımdan hazırlıqlı olmalıyıq ki, beynəlxalq təzyiqlər qarşısında qalmayaq".

**Qarabağ Qazilər Birliyinin sədri Etimad Əsədov** savaşa başlamaq üçün şansın yarandığı qənaətindədir: "Atəşkəsin ciddi şəkildə pozulması nəticəsində çoxlu şəhidlər verdik, Allah bütün şəhidlərimizə rəhmət eləsin. O günlərdə Müdafiə Nazirliyinin məsələyə sərt reaksiyası, hərbi qüvvələrin cəbhə xəttində cəmlənməsi və düşmənə layiqincə cavab verməsi, ermənilərin də böyük itkilərə məruz qalması cəmiyyətdə böyük yüksəkliyinə səbəb olmuşdu. Hesab olunurdu ki, Azərbaycan nəhayət, torpaqlarını azad etməyə başlayacaq. Çünki ermənilər öz xəbis niyyətlərindən əl çəkmirlər. Ölkə rəhbərliyi başda olmaqla Ermənistan hər cür alçaq addımlara gedirlər. Biz Qarabağ döyüşçüləri olaraq Ali Baş Komandana və müdafiə nazirinə müraciət etdik ki, müharibə insanları, təcrübə qazanmış şəxslər olaraq hər zaman silaha sarılmağa, torpaqlarımızı işğaldan təmizləyərək qalib, azad ölkənin vətəndaşları adını daşımağa, Vətən uğrunda şəhidlik zirvəsinə ucalmağa hazırıq. Ona görə də yetər ki, müharibə əmri verilsin və biz də Azərbaycan torpaqlarının azadlığı uğrunda əməliyyatların iştirakçısı olaq". **E.Əsədov yenə də danışıqlar prosesinə gedilməsi barədə qərarın verilməsindən təəssüfünü ifadə etdi:** "Bu da açığı, bizdə ruh düşkünlüyü yaratdı. Bizi narahat edən bir məsələ var, indiki vəziyyət nə qədər davam edə bilər? Düşmən sülh yolu ilə mənfur niyyətindən əl çəkməyəcək, torpaqları azad etməyəcək. Ona görə də biz növbəti şansı əldən qaçırdıq. Yaxın Şərqdə baş verən proseslər, Rusiya-Ukrayna gərginliyi, İraqdakı İŞİD məsələsi, kürd dövlətinin yaradılması istiqamətində addımlara edilən yardımlar, İsrail-Fələstin gərginliyi bizə də situasiyadan bəhrələnib torpaqlarımızı azad etmək şansı vermişdi. Amma nə vaxt ki, Azərbaycan dövləti savaş qərarı verəcək, başda müharibə veteranları olmaqla xalqımız torpaqlarını azad etməyə hazırdır".

**Keçmiş döyüşçü bildirdi ki, ona çoxlu sayda əlillər müraciət edərək savaşa hazır olduqlarını, cəbhəyə getmək istədiklərini bildiriblər:** "Deyirlər ki, xahiş edirik bizim də adımızı siyahıya yazın, kənarda qalmayaq. Şəxsən mən protezlə gəzməyimə baxmayaraq, normal gəzə bilirəm. Odur ki, hər an döyüşə getməyə, əsgər və zabitlərimizlə birgə səngərdə olmağa hazıram".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014

## Azərbaycanda sələfi camaatına yaxın quruma qarşı əməliyyat

**Mətbuatda hüquq-mühafizə orqanlarının vəhhabilərə yaxınlığı ilə tanınan beynəlxalq şirkətin Bakı ofisində əməliyyat keçirməsi ilə bağlı məlumat yayılıb. aznews.az saytının yaydığı məlumatında qeyd olunurdu ki, "Dar əl-Bir" humanitar təşkilatının ofisində əməliyyat-axtarış tədbirləri həyata keçirilib.**
**Saytın xəbərində qeyd olunur ki, iki saata yaxın davam edən axtarışın sonunda ofisdə olan bəzi sənədlər və maddi sübutlar götürülüb.**

# Bakıdakı vəhhabi fondunda qəfil yoxlama və həbslər

## 1994-cü ildən ölkədə problemsiz fəaliyyət göstərən "Dar əl-Bir" xeyriyyə cəmiyyətinə də növbə çatdı; təşkilatın nümayəndəliyi yalnız vergi yoxlamaları olduğunu bildirsə də, ortada şübhəli məqamlar çoxdur; "Əbu Bəkr" məscidinin imamı Qamət Süleymanovun fonda hansı aidiyyəti var?..

**Bundan başqa, ofisin əməkdaşları da saxlanılaraq, hüquq-mühafizə orqanına aparılıb.**

Ötən gün haqqında həbs xəbəri yayılan "Dar əl-Bir" təşkilatının özü açıqlama yayaraq həbs xəbərini təkzib edib. Cəmiyyətin Azərbaycan nümayəndəliyi həbs və dini təriqətlərlə əlaqəsi iddiasını rədd edib. Azerinfo.org saytında yayılan təkzib bəyanatında həbs xəbərinin doğru olmadığı, yalnız təşkilatda yoxlamalar aparıldığı bildirilir: "Humanitar təşkilat olduğumuz üçün vergidən azad olan "Dar əl-Bir" xeyriyyə cəmiyyətinin Azərbaycan nümayəndəliyinin fəaliyyəti hazırda Vergilər Nazirliyi tərəfindən yoxlanılmaqdadır. Hər hansı üzvümüzün həbs olunması və ya saxlanılması xəbəri doğru deyil. Biz Azərbaycanın bütün dövlət qurumları kimi vergi orqanları ilə də əməkdaşlıq edir və fəaliyyətimizi Azərbaycan qanunvericiliyinə uyğun aparırıq".

**Bəyanatda daha sonra qeyd olunur ki, "Dar əl-Bir"in Azərbaycan nümayəndəliyi Bakıda 1994-cü ildə açılıb.** Cəmiyyət Bakıda fəaliyyətə başladığı gündən etibarən Azərbaycan hökuməti, xüsusən Azərbaycan Respublikası Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası ilə əlaqələndirilib. 2007-ci ildən "Darul-Bir" Xeyriyyə Cəmiyyəti aztəminatlı ailələrin himayəyə götürülməsi layihəsi çərçivəsində Azərbaycanın aztəminatlı ailələrinə də yardım göstərir. Sözügedən layihədən hazırda respublikanın müxtəlif bölgələrinə mənsub, əksəriyyəti qaçqın və məcburi köçkün olmaqla onlarla aztəminatlı azərbaycanlı ailəsi yararlanıb.

**Mənzil-qərargahı Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay Əmirliyində yerləşən "Dar əl-Bir" Xeyriyyə Cəmiyyəti 1979-cu ildə, Birləşmiş Ərəb Əmirliklərində Əmək və Sosial Məsələlər Nazirliyinin 23/79 saylı sərəncamı ilə təsis edilib.** Xeyriyyəçilik fəaliyyəti həyata keçirir. Birləşmiş Ərəb Əmirlikləri dövlətinin vitse-prezidenti, eyni zamanda baş nazir və Dubay şəhərinin meri olan Şeyx Muhəmməd ibn Raşid əl-Məktum tərəfindən təsdiq edilmiş idarə heyəti sözügedən cəmiyyətə rəhbərlik edir.

**Qeyd edək ki, xeyriyyə cəmiyyəti 1990-cı illərin əvvəllərində Azərbaycanda fəaliyyətə başlayan 15-ə yaxın ərəb xeyriyyə fondundan biridir.** Azərbaycanda qaçqın və məcbur köçkünlərin maddi durumunun ağır olduğu vaxtda ölkəyə gələn bu qurumlar böyük həcmdə yardım fəaliyyətləri həyata keçirib. Ancaq eyni zamanda bu qurumlar Azərbaycanda din təbliğatı, Quran kursları, azərbaycanlı gənclərin xarici ölkələrdə təhsil alması, məscidlərin tikilməsi kimi dini yönümlü fəaliyyətlər də həyata keçiriblər. Ancaq zamanla Azərbaycan hökuməti bu şübhəli fəaliyyətləri olan bir çox təşkilatları ölkədən çıxarıb. Yalnız bir neçə təşkilat, o cümlədən "Dar əl-Bir", eləcə də Küveytin Asiya Müsəlmanları Komitəsi və daha bir neçə yardım qurumu mövcudluğunu qoruyub saxlaya bilib. Bu qurumlar əsasən yardım fəaliyyətləri həyata keçiriblər.

**Konkret olaraq "Dar əl-Bir" təşkilatına gəlincə, bu qurumun əsasən yardım aksiyaları keçirdiyi, ehtiyaclı insanlara yardımlar payladığı bildirilir.** Digər ərəb yardım qurumlarından fərqli olaraq "Dar əl-Bir"in məscid tikintisi və digər dini fəaliyyətlərdən kənar olduğu deyilir. Bu qurum Azərbaycandakı sələfi camaatına, xüsusən də hazırda fəaliyyətini dayandırmış "Əbu Bəkr" məscidinin imamı Qamət Süleymanova yaxın təşkilat hesab olunur. Bu səbəbdən bizə çatan bilgilərə görə, "Dar əl-Bir" uzun illər ölkədə rahat şəkildə fəaliyyət göstərə bilib.

Yalnız 2000-ci illərin əvvəllərində hökumət orqanları "Dar əl-Bir" təşkilatına təzyiq ediblər. Ancaq bildirilir ki, qurumun radikal deyil, mötədil sələfi camaatına yaxın olması, eyni zamanda hökumətdə dayaqları olması səbəbindən fəaliyyətini davam etdirə bilib.

**Xeyriyyə cəmiyyətində həbs və yoxlama xəbəri ilə bağlı Baş Prokurorluğa müraciət etdik.** Qurumun mətbuat xidmətindən bildirdilər ki, onlarda bu barədə məlumat yoxdur. Xatırladaq ki, bir qədər əvvəl qəzetimizdə ölkə ərazisində dini icmaların qeyri-qanuni maliyyələşməsinə dəstək olan qurumlara qarşı əməliyyatların keçirilməsi haqda xəbər verilmişdi. Xəbərdə qeyd olunurdu ki, hökumət icmaların və dini fəaliyyətlərin gizli şəkildə maliyyələşməsində iştirak edən biznes qurumları və şəxsləri ifşa edərək cəzalandırır. "Dar əl-Bir"də yoxlamaların məhz bu əməliyyatlar çərçivəsində aparılması istisna edilmir.

**Mövzunu araşdırmaqda davam edəcəyik.**

❑ Kənan RÖVŞƏNOĞLU


Əhməd Davudoğlu

# Türkiyənin yeni baş naziri Əhməd Davudoğlu oldu - şərh, tərcümeyi-hal

## Qardaş ölkənin yeni baş nazirinin Azərbaycan siyasətçiləri ilə də yaxın münasibətləri var

**Avqustun 21-də Türkiyədə hakim AKP-nin mərkəzi qərargahında partiyanın Mərkəzi İdarə Heyətinin toplantısı keçirilib. Hələ toplantıdan öncə öncə jurnalistlərə açıqlama verən AKP sədrinin müavini Numan Kurtulmuş bildirmişdi ki, toplantıda böyük ehtimalla yeni baş nazirin adı bəlli olacaq.**

Gözlənildiyi kimi də oldu və AKP Mərkəzi İdarə Heyəti xarici işlər naziri Əhməd Davudoğlunun baş nazir və partiya sədri seçilməsi ilə bağlı qərar qəbul edib. Qərarı toplantıdan sonra keçirilən mətbuat konfransında prezident Rəcəb Tayyib Ərdoğan açıqlayıb.

Ərdoğan kürsüyə çıxıb və təmtaraqla, musiqilərin fonunda Türkiyənin yeni baş nazirini - xələfini elan edib: Əhməd Davudoğlu. Ancaq bundan öncə izahedici çıxışı olub. "Güclü başbakan - güclü cümhurbaşqanı" formulunu da bu çıxışında ortaya atıb."Mərkəz Yürütmə Kurulu" adlanan partiya rəhbərliyinin başqa qərarları da olub.

Ərdoğan Ə. Davudoğlunu təqdim edəndə deyib ki, partiyanın rəhbərliyinin bu ismin üzərində durmasının bir səbəbi də "paralel yapı" (Gülənçilərə biçilən ad) ilə ardıcıl və sarsılmaz mücadilə əzmi olub. "Əhməd Davudoğlu qardaşım da onların verdiyi acını yaşayıb. XİN-də apardığı gizli toplantının deşifrə edilməsi..." kimi ifadələrlə açıq şəkildə bildirib ki, Türkiyənin yeni dizayn olunan iqtidarı F. Gülən camaatı və tərəfdarları ilə kəskin savaşacaq.

Türkiyənin 62-ci hökumətinin başçısı olacaq Əhməd Davudoğlu akademik dairələrin adamı hesab edilir. Siyasətə və dövlət vəzifəsinə universitetdən gəlib. Bir müddət Ərdoğanın xarici siyasət məsələləri üzrə müşaviri olub. "Qonşularla sıfır problem" nəzəriyyəsini irəli sürüb, Yaxın Şərqdə siyasi münasibətlərdən bəhs edən nəzəriyyənin müəllifidir. Davudoğlu islamçı siyasi kursun, Yaxın Şərqdə keçmiş Osmanlı imperiyası ərazisindəki dövlətlərin yeni əməkdaşlıq formasında birliyinin tərəfdarıdır. Eyni zamanda "Yeni Osmanlıçılıq siyasəti" terminologiyası da onun adı ilə bağlanır.

Müşahidəçilərə görə, Ərdoğanın Davudoğlunun üzərində dayanması, bu şəxsin islamçı siyasi kursun tərəfdarı olması, xarici və daxili siyasət məsələsində Ərdoğanla həmfikir olması, ən əsası Ərdoğana sadiq, siyasətdə ayrıca bir qrupa və ya fraksiyaya bağlı olmaması, bu səbəbdən də partiyada parçalanmaya səbəb olmayacağı ilə bağlı təxminlərdir.

**Beləliklə, Türkiyənin yeni baş naziri və AKP-nin yeni rəhbəri Əhməd Davudoğlu oldu.**

*Əhməd Davudoğlu 26 fevral 1959-cu ildə Türkiyənin Konya vilayətinin Taşkənt şəhərində doğulub. Atasının adı Mehmet Duran, anasının adı isə Məmnunədir. Atası tekstil sənayesində və ticarət sahəsində çalışıb. İlk təhsilini Konyada almağa başlayıb, ancaq sonradan İstanbula köçdükləri üçün orta təhsilini İstanbul oğlan liseyində tamamlayıb. İstanbul Boğaziçi Universitetinin iqtisadiyyat və siyasət fakültəsini bitirib. 1984-cü ildə - universiteti bitirdikdən sonra yenə eyni universitetdə ictimai idarəçilik sahəsində magistr, siyasət və beynəlxalq münasibətlər sahəsində doktorluq təhsili alıb. 1990-cı ildə Malayziya Beynəlxalq İslam Universitetində müəllim kimi çalışıb. Daha sonra həmin universitetin siyasət fakültəsinə rəhbərlik edib. 1995-ci ildə Malayziyadan Türkiyəyə qayıdıb. 1995-99-cu illərdə Mərmərə Universitetində beynəlxalq əlaqələr fakültəsində çalışıb. 1998-2002-ci illərdə Hərbi Akademiyada qonaq müəllim kimi dərs deyib. 1998-2002-ci ildə isə Beykent Universitetində Beynəlxalq Münasibətlər fakültəsinə rəhbərlik edib, eyni zamanda Mərmərə Universitetində qonaq professor kimi dərs deyib.*

*2002-ci ildə AKP seçkilərdə qalib gəldikdən sonra keçici müddətə baş nazir olan Abdullah Gülün baş müşaviri olub. Daha sonra Ərdoğan baş nazir olduqdan sonra da bu vəzifəsində davam edib. Həmin vaxt siyasi kluarlarda "kölgədəki xarici işlər naziri" də adlandırılan Davudoğlu Avropa Birliyi, Kipr müzakirələri, İraq müharibəsi ilə bağlı diplomatik danışıqlarda fəal iştirak edirdi.*

*2003-cü il yanvarın 18-də o zamankı prezident Əhməd Necdət Sezər və baş nazir Abdullah Gülün imzaladığı qərarla səfir diplomatik rütbəsi alıb. 2009-cu il mayın 11-də isə baş nazirin parlamentdən kənar qərarı ilə xarici işlər naziri təyin olunub. 2011-ci il iyun seçkilərində AKP-dən Konya millət vəkili seçilib. Türkiyənin 60 və 61-ci hökumətlərində xarici işlər naziri postunu tutub.*

*Əhməd Davudoğlu ingilis, ərəb, alman dillərini bilir. Çoxlu sayda məqalələrin, o cümlədən bir sıra kitabların müəllifidir. Ən məşhur əsəri "Strateji dərinlik: Türkiyənin beynəlxalq yeri" adı kitabıdır. Bundan başqa "Osmanlı Mədəniyyəti: Siyasət, iqtisad, sənət" və sair bir çox əsərlərin müəllifidir. Türkiyədə məşhur SETA (Siyasət, İqtisadiyyat və Toplum (Cəmiyyət) Araşdırmaları) Araşdırma Mərkəzi, Bilim və Sənət Vəqfi, İstanbul Şəhər Universiteti Əhməd Davudoğlunun təsis etdiyi və ya nəzarətində fəaliyyət göstərən qurumlardır.*

*1984-cü ildə Sara Davudoğlu ilə ailə qurub. Səfurə, Məmnunə, Mehmet və Həcər Bikə adlarında 4 övladı var. Həyat yoldaşı həkimdir.*

Ə.Davudoğlu Azərbaycanın bir sıra siyasətçiləri, o cümlədən də müxalifət liderlərinin bəziləri ilə şəxsən tanışdır.

❑ Kənan RÖVŞƏNOĞLU

# Heydər Əliyev Mərkəzinin direktoru dəyişdirilir?

**Musavat.com-a verilən məlumata görə, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov vəzifəsindən çıxarılmaq ərəfəsindədir: "Onu yaxın günlərdə başqa kadrla əvəzləyəcəklər. Bunun səbəbi Anar Ələkbərovun özünə olan əvvəlki etimadı itirməsidir ". Musavat.com Anar Ələkbərovun ona göstərilən yüksək etimadı hansı səbəbdən itirməsini, ümumiyyətlə bu iddiaların doğru olub-olmamasını dəqiqləşdirə bilməyib. Bunun bir səbəbi də müxbirimizin Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərovla əlaqə yarada bilməməsidir. Musavat.com əməkdaşının Mərkəzə etdiyi telefon zəngi də vəziyyəti dəyişməyib. Özünü katibə kimi təqdim edən şəxs saat 17 radələrində Mərkəzə zəng edən müxbirimizə deyib ki, burada heç kim yoxdur.**

Musavat.com-a daxil olan xəbərdə o da iddia edilir ki, A.Ələkbərov az öncə hüquq-mühafizə orqanları ilə də mürəkkəb münasibət yaşayıb. Lakin bu iddianın da təsdiqi mümkün olmayıb. Ümid edək ki, bu xəbər ictimailəşəndən sonra müvafiq cavablar və dəqiqləşdirmələr ala biləcəyik.

Bildiririk ki, Anar Sahib oğlu Ələkbərov bundan əvvəl Heydər Əliyev Fondunun icraçı direktoru vəzifəsində çalışıb. Azərbaycan Respublikası Prezidentinin 10 iyul 2012-ci il tarixli Sərəncamı ilə Heydər Əliyev Mərkəzinin direktoru təyin edilib. Az.SSP-in Komsomol komitəsinin rəhbəri olmuş Sahib Ələkbərovun oğludur. S.Ələkbərov hazırda Vergilər Nazirinin müavini vəzifəsində çalışır. Oğluna olan etimadsızlığın ata Ələkbərova da şamil olunub-olunmayacağı məlum deyil.


Anar Ələkbərov

❑ Musavat.com

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014

# Ssenarinin səfehliyi



Zamin HACI
zaminhaci@gmail.com

**AYB sədri Anarın ssenarisi, Ramiz Həsənoğlunun rejissorluğu ilə çəkilən "Sübhün səfiri" tragikomediyasına baxdım. Əslində film köhnədir, yanılmıramsa 2012-ci ildə çəkilib. Mən özümə həmişə söz verirəm ki, üstündə "Azərbaycanda çəkilib" yazılan kinolara baxmayım, çünki bunlara baxandan sonra adam Lümyer qardaşlarını söymək istəyir. Aparatı qayırıb bu nadanların əlinə verdikləri üçün. Ancaq hər dəfə də andımı pozub baxıram və növbəti peşmançılığı yaşayıram.**

İlk növbədə, Anar müəllimi daha bir klassikimizin anasını ağlar qoyması münasibətiylə qutlamaq olar. Mən ona görə yuxarıda filmin janrını "tragikomediya" yazdım. Təsəvvür edin, materialist filosofun ölümü səhnəsini elə biabırçı çəkiblər deyərsən nurçuların "Samanyolu" telekanalizasiyasında "Sırlar dünyası" adlı multfilmə baxırsan. Kinoda ruhun, qeybdən gəlib danışanın sayı-hesabı yoxdur. Bircə o səhnə çatışmır ki, Mirzə Fətəli pirə gedib nəzir versin.

Əlbəttə, bu, Anar Rzayevin sevimli iş üsuludur. Özünə rahat bir qəlib tapıb, istənilən sənətkarımızı o qəlibə dürtüb inkubator cücələri kimi düşük ssenarilər istehsal edə bilir. (Sonra Cəmil Həsənli bunlar əsasında Anarı "böyük ssenarist" sayır). Bu qəlib də ondan ibarətdir ki, adamın qoca vaxtlarıdır, oturub keçən günləri düşünür, həmin günlərin epizodları qırıq-qırıq bunun gözünün qabağından keçir. "Gün keçdi"dən tutmuş "Dədə Qorqud"a, "Cavid ömrü"ndən "Qəm pəncərəsi"nə qədər hamısı eyni ssenaridir. Özünə əziyyət verib nəsə yeni bir şey niyə yazsın? Camaata sırıyır da onsuz...

Qaldı filmin rejissoru Ramiz Həsənoğluna, ona ilk dəfə kim "sən kino çəkə bilərsən" deyibsə həmin adam ciddi şəkildə satira ustası olmuşdur. Bu adam kinonu elə çəkir sanarsan "Neolit" şadlıq sarayının administratoru toy çəkilişləri üçün operator Məmmədağaya göstəriş veribdir. Ay qardaş, nə zülmdür, alınmır da bə, çəkmə! Vallah, toy çəksəniz uca millətimizə daha faydalı məşğuliyyət olar.

Ümumiyyətlə, sənətə gərək fanatikcəsinə, ürək yanğısı ilə girişəsən. Bu mənada, Mətbuat Şurasının sədri, görkəmli sənətkarımız Əflatun Amaşov yoldaşın uğurlu fəaliyyətini qeyd edə bilərik.

İki-üç gün qabaq xəbər lentində oxudum ki, Əflatun müəllim milli mətbuatımızın dil problemlərini qaydasına salmaq fikrindədir. Həsən bəy Zərdabidən üzü bəri Əflatun Amaşov ikinci adamdır ki, mətbuat yanğısı ilə parlayır, qəzetçilik üçün özünü həlak edir. Üçüncü adam jurnalistlərin binasında aldığı evi pakistanlı evsizlərə humanistcəsinə kirayə verən "Azad Azərbaycan" qəzetciyinin baş redaktorudur, adı yadıma düşəndə yazaram.

Uzun sözün qısası, Əflatun müəllim prezident yanında qəzetlərə yardım fondundan pul alaraq bölgələrdə işlər görəcəkdir. Sitat: "Layihə 2014-cü ilin avqust-dekabr aylarını əhatə edəcək. Layihə çərçivəsində Gəncə və Şəki şəhərlərində "Mətbuatda Azərbaycan ədəbi dilinin qorunması: problemlər və perspektivlər" mövzusunda "dəyirmi masa"ların təşkili planlaşdırılır".

Nə gözəl tədbirdir... Məsələ ondadır ki, bu saat nə Gəncədə, nə də Şəkidə normal dərc edilən bir dənə də yerli qəzet-məzet qalmamışdır. Heç Bakıda çıxan qəzetlər əyalətə gedib çıxmır. 300 minlik şəhərdə 1 qəzet köşkü taparsan, onun da yarısında qarpız və arvad tumanı satılır. Bəs çıxmayan qəzetin ədəbi dil problemlərini necə öyrənmək olar? Əflatun müəllim bunu yaxşı bilir. Çünki o, bizim jurnalistlərin ürəyni oxuyur! Oxuyur görür ki, misal üçün, Bəxtiyar Sadıqov yarım saat sonra yazmağa başlayacağı oçerkdə vergülü düzgün qoymayacaqdır. Umud Mirzəoğlu isə tire işarəsini yeri gəldi-gəlmədi istifadə edəcəkdir.

**Bu cür istedadlı insanları qorumalıyıq. Təklif edirəm Anar müəllim növbəti ssenarisini Amaşov haqda yazsın.**

# Bu gün Əbülfəz Elçibəyin anım günüdür

**Bu gün sabiq prezident Əbülfəz Elçibəyin vəfat günüdür. Elçibəyin qardaşı Almurad Əliyev anım günü münasibətilə eks-prezidentin məzarının ziyarət olunacağını vurğuladı.**

## Silahdaşları onun məzarını ziyarət edəcəklər; **Almurad Əliyev:** "Kim tədbir keçirir-keçirsin, mənim üçün hamı birdir..."




Ayrı-ayrı partiyaların bu münasibətlə Xiyabana toplaşacaqlarını qeyd edən Almurad bəy istəyir ki, bu tədbir dövlət səviyyəsində də keçirilsin: "Kim tədbir keçirir-keçirsin. Mənim üçün hamı birdir. Heç bir fərq qoymuram".

Elçibəyin irsinin toplanması işlərinin nə yerdə qalmasına gəldikdə, A.Əliyev dedi ki, hazırda Bəyin haqqında bir kitab nəşrə hazırlanır: "Elçibəylə bağlı olan nə vardısa, hamısı toplanıb və evindədir". Qardaşı dedi ki, Elçibəyin ev muzeyinin yaradılması və əşyaların ora toplanması da çox yaxşı olardı.

Avqustun 22-də Müsavat Partiyasının rəhbərliyi 22 avqust saat 11.00-da Fəxri Xiyabana toplaşacaq. Başqan müavini Gülağa Aslanlı bu barədə məlumat yayıb. Bildirib ki, arzu edənlər tədbirdə iştirak edə bilərlər. AXCP və digər partiyaların da anıt mərasimi keçirəcəyi barədə xəbər var.

Qeyd edək ki, avqustun 22-də Azərbaycanın ikinci prezidenti Əbülfəz Elçibəyin vəfatından on dörd il keçir. Bu tarix Elçibəyin anım günü kimi qeyd olunur. Bu tarixdə Elçibəyin siyasi mübarizə yoldaşları və yaxınları onun Fəxri Xiyabandakı abidəsi önündə anım mərasimi keçirir.

Əbülfəz Əliyev (Elçibəy) iyunun 24-də 1938-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Kələki kəndində anadan olub. Ötən sərin 80-ci illərinin sonlarında başlanan xalq azadlıq hərəkatının liderlərindən biri olub. O, Xalq Cəbhəsinin sədri kimi 1992-ci il iyunun 7-də Azərbaycanın prezidenti seçilib. 1993-cü ilin iyununda baş vermiş qiyam nəticəsində Bakını tərk edərək anadan olduğu Kələki kəndinə gedib, 4 il 4 ay orada yaşayıb. 2000-ci ilin avqustun 22-də 63 yaşında vəfat edib.

**Allah rəhmət eləsin!**

❑ ELŞAD

# Müsəlmanların Varfolomey gecəsi

**Yaxın Şərqdə baş verən son proseslər islam dininin mənfi rakursdan səciyyələndirilməsinə şərait yaratdı. 11 sentyabr 2001-ci il ABŞ-da baş verən məlum terror hadisəsindən sonra dünyada müsəlmanlara qarşı mənfi rəy formalaşmağa başlamışdı. Bu münasibət İŞİD-ın Yaxın Şərqdə kütləvi başkəsmə əməliyyatları nəticəsində daha da eybəcər forma aldı. Orta statistik avropalının müsəlmanlara olan münasibəti az qala nifrət həddinə qədər yüksəlib. Bütün bu hadisələrin fonunda Qərb ekspertlərinin kölgəsi açıq-aydın sezilsə də, bəzi müsəlmanların düşünülməmiş addımları islam dinini vəhşi obrazda təqdim etmək istəyənlərə yardım edir.**

Azər RƏŞİDOĞLU



**Dinlər tarixində səmavi kitabların mahiyyətinə zidd olan çoxsaylı addımlar atılıb. Belə bir addımı yalnız müsəlmanlar atmayıblar. Xristianlar da zaman-zaman daha eybəcər formada dini dözümsüzlük nümayiş etdiriblər.**

Məsələn, XVI əsrdə Roma papası və hakim Roma katolik kilsəsi arasında müşahidə edilən qarşıdurma xristianlıqda islahatçılıq hərəkatının geniş vüsət almasına səbəb oldu. Nəticədə yeni xristian məzhəbi - protestantlıq meydana gəldi. Protestantlıq Qərb dünyasını iki barışmaz hissəyə parçaladı. Protestantlarla katoliklər arasındakı gərginlik hərbi toqquşmalara, qanlı müharibələrə gətirib çıxartdı.

Həmin dövrlər Fransanı da məzhəb müharibələri bürüdü. Bu ölkədə katoliklərlə protestantların düşmənçiliyi üç hərbi münaqişə ilə başa çatdı. 1570-ci ildə Sen-Jermen müqaviləsinin bağlanması ilə protestantlar müəyyən hüquqlar əldə edə bildilər.

Lakin qarşıdurmaları aradan qaldırmaq mümkün olmadı. 1572-ci il 24 avqustda Müqəddəs Varfolomey günü xristianlıq tarixinə ən qara ləkə kimi düşdü.

O gün şəhər qapıları bağlandı və hərbi dəstələr kilsə zənglərinin işarəsi ilə protestant olan şəhər əhalisini qətlə yetirməyə başladılar.

Parisdə başlanmış bu qırğın, kralın xeyir-duası ilə ölkənin digər şəhərlərinə də yayıldı. Azğınlaşmış katoliklər protestantların əvvəlcədən təbaşirlə işarələnmiş evlərinə girərək, onları eyvandan küçəyə atıb, qadınlara təcavüz etdilər, soyğunçuluqla məşğul oldular. Qadınlar, uşaqlar, qocalar, hər kəs öldürüldü, təkcə protestantlar deyil, hətta katolisizmə məxsus olmayan digər din nümayəndələri də öldürüldü.

Canını qurtaranlar yalnız katoliklər oldu.

Bu qətliam təqribən bir həftə davam etdi. Paris küçələri qana boyandı. Katolik ruhanilər bu qəddarlığa pis münasibət bəsləyənləri kilsədən uzaqlaşdırmaqla hədələdilər, hətta onları qətlə də yetirdilər.

"Varfolomey gecəsi"nin qurbanlarının sayı barədə yekdil fikir yoxdur. Hesab edilir ki, Parisdə təqribən üç min, bütün Fransada isə on min ilə əlli min arasında protestant qətlə yetirildi. Həmin dövrdə Fransada baş vermiş qətliam katolik dünyasında rəğbətlə qarşılandı, Roma Papası bu faciəni alqışlayaraq Vatikanda fişəng atılmasını və xüsusi medalın təsis edilməsini əmr etdi.

Xristianlıqda parçalanma və məzhəb savaşı bu gün də davam edir. Lakin XX əsrdən başlayaraq müxtəlif xristian məzhəbləri arasında dialoq və əməkdaşlıq getdikcə artır. 1948-ci ildə yaranan Ümumdünya Kilsələr Şurası 100-dən artıq ölkədə 330-dan artıq kilsə, məzhəb və icmanı birləşdirir. Pravoslav kilsəsi XIX əsrdən Qərb kilsələri ilə dialoqa hazır olduğunu nümayiş etdirir.

Roma papası İoann Pavelin 25 may 1995-ci il tarixli qərarında katolik kilsəsinin pravoslav və protestant kilsələri ilə birliyi haqqında belə hökm verildi: "Katolik kilsəsi Allahın əmrinə əsasən bütün xristianları bir araya gətirməyi qarşısına məqsəd qoyur".

Ümumdünya Kilsələr Şurası yaranmasında böyük rolu olan protestant kilsələrinin nümayəndəsi Olav Fykse Tveit daha irəliyə gedib, başqa din mənsubları ilə dialoqdan bəhs edir: "Başqa imanlara mənsub insanlarla dialoqda olmadan, xristian şəhadəti etmək qeyri-mümkündür. Bu demək deyil ki, siz öz əqidənizdən imtina etməlisiniz. Ancaq heç kəs Allaha iman etdiyini deyib, sonra, "Bizim Allahımız sizə qarşıdır" deyə bilməz. Allah hər kəsin Yaradanıdır".

Göründüyü kimi, bütün bu mənfi hallar xristian dünyasını eybəcərləşdirmək üçün istifadə edilmədi. Kilsə, din xadimləri belə halları pislədi. Odur ki, heç kəs xristianlığın vəhşi din olduğu barədə düşünmədi. Kilsə tarixdə buraxdığı səhvləri düzəltmək niyyətində olduğunu nümayiş etdirir.

**İŞİD və sələfilərin vəhşilikləri də zaman keçdikcə unudulacaq. Lakin bu zərbələr ağır yaralar vura bilər. Sadəcə olaraq, bu dəfə təkfirçi təşkilatları islama zərbə vurmaq üçün yetişdirən Qərbli texnoloqları güclüdür.**

# İsrailin "erməni soyqırımı"nı tanımasına Azərbaycan mane olur

**"Vestnik Kavkaz" nəşrinin iddiasına görə, İsrail və Ermənistan prezident administrasiyalarının əməkdaşları rəsmi Tel-Əvivin 1915-ci il hadisələrini "soyqırımı" kimi tanıması istiqamətində intensiv danışıq aparırlar. Nəşrin israilli müxbirinin yazdığına görə, erməni tərəfinin tərtib etdiyi plana görə, İsrailin yeni prezidenti Reuven Rivlin qondarma "soyqırımı"n 100 illiyi ilə bağlı 2015-ci ildə keçiriləcək tədbirlərdə iştirak etmək məqsədilə digər dünya liderləri ilə birgə İrəvana gəlməli, çıxışı zamanı bəyan etməlidir ki, İsrail 1915-ci ildə Türkiyənin o vaxtkı hakimiyyətinin erməni xalqına qarşı soyqırımı aktı törətdiyini rəsmi olaraq soyqırımı kimi tanıyır.**



## Natiq Miri: "İsrail ermənilərin 1918-ci ildə türklərə və yəhudilərə qarşı soyqırımını tanısa, daha ədalətli olar"



## Fərhad Mehdiyev: "Türkiyə ilə İsrailin münasibətləri göründüyü qədər pis deyil"

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri, politoloq Natiq Miri** hesab edir ki, İsrailin qondarma "erməni soyqırımı"nı tanımaq məsələsinin gündəmə gətirilməsi informasiya savaşının tərkib hissəsidir. İsrail əslində bu informasiyanı dövriyyəyə buraxmaqla Türkiyə ilə siyasi bazarlaşmalar etmək istəyir: "İsrailin Türkiyədə keçirilən prezident seçkilərindən müəyyən gözləntiləri var idi. Düşünürdülər ki, əgər prezident dəyişsə, Türkiyə-İsrail münasibətlərini yenidən isti məcraya daşımaq mümkün olacaq. Amma bu olmadı, İsraillə münasibətləri pis olan Ərdoğan prezident seçildi. Məhz bundan sonra qeyd etdiyim informasiya maşını hərəkətə keçdi. İsrail Türkiyəyə demək istəyir ki, bizim bu imkanımız var və biz bunu edə bilərik, ancaq etməyəcəyiksə, bunun qarşılığı olmalıdır. Bu qarşılıq isə Türkiyənin İsraillə münasibətləri, əlaqələri əvvəlki isti məcraya yönəltməsi ola bilər. Hesab edirəm ki, bu istiqamətdə siyasi bazarlıqlar gedəcək, rəsmi qaydada "erməni soyqırımı"nı tanıması məsələsi baş verməyəcək".

**Ekspertin fikrincə, İsrailin "erməni soyqırımı"nı tanımasını tormozlayan faktorlardan, maneələrdən biri də Azərbaycandır:** "İsrail Azərbaycanla çox yaxın münasibətlərdədir, Azərbaycanda kompakt şəkildə çoxlu sayda yəhudilər əsirlərdir yaşayır. İsrail bilməmiş deyil ki, "erməni soyqırımı"nı tanımaq təkcə Türkiyə ilə deyil, Azərbaycanla münasibətlərə çox ciddi zərbə vura bilər. Azərbaycanın torpaqlarını işğal edən Ermənistanın xeyirinə "soyqırımı" tanımaq kimi addımı atmağın Azərbaycanın da maraqlarına zidd olacağını İsrail şübhəsiz ki, bilir. Ona görə də bütün bu faktorlar nəzərə alınacaq. Məncə, İsrail bunu da nəzərə almalıdır ki, ermənilər 1918-ci ilin martında Azərbaycan ərazisində Azərbaycan türkləri ilə yanaşı, Azərbaycan yəhudilərinə də soyqırımı həyata keçiriblər. Qubada yaşayan yəhudilərə qarşı o vaxt ermənilər amansız qırğın törədiblər. Bütün bunlar tarixi faktlardır. İsrail ermənilərin 1918-ci ildə Azərbaycanda Azərbaycan türklərinə və yəhudilərə qarşı həyata keçirdiyi həqiqi soyqırımı tanısa daha ədalətli olar".

**Politoloq Fərhad Mehdiyev** isə istiqamət.coma bildirib ki, İsraillə Türkiyənin münasibətlərinin çox da yaxşı olmamasından ermənilər yararlanmaq istəyirlər. İsrailin 1915-ci il hadisələrini soyqırımı kimi qəbul etməsi ermənilər üçün çox vacibdir. Ermənilər Ərdoğan hökuməti ilə Netenyahu hökuməti arasında münasibətin yaxşı olmadığını bilib bu hadisələri necə tanıtdıra biləcəklərini fikirləşirlər. F.Mehdiyev deyib ki, mövcud konyunkturadan çıxış etsək, ermənilərin buna nail olma ehtimalı var. Amma bu, çox da güclü ehtimal deyil: "Birincisi, Türkiyə "soyqırımı"ın tanınmaması üçün İsraillə birbaşa əlaqəsi olan ABŞ-dakı yəhudi lobbisindən istifadə edir. Türkiyə bunu hər zaman edir və yaqin ki, yenə də edəcək. Düzdür, İsrailin yeni prezidenti Reuven Rivlin əvvəllər də qondarma soyqırımın tanınmasına dəstək verib, ola bilsin gələn il "soyqırımı" abidəsini ziyarət etmək üçün Ermənistana getmək istəyir. Bunlar ola bilər. Amma bu Knessetin qondarma soyqırımı qəbul edəcəyinə dair güclü arqument deyil. Əgər Türkiyə ilə İsrail arasındakı münasibətlər bundan daha artıq pisləşsə, bu ehtimal artır. Amma məncə, mövcud konyunkturada bu, hələ ki həyata keçirilməyəcək".

**F.Mehdiyevə görə, Ərdoğan hökuməti ilə İsrailin söz davası aparması əslində iki dövlət arasındakı münasibətlərin çox pis olduğu mənasına gəlmir:** "Baxın, Şimali İraqda yerləşən Kürd Muxtariyyətinin satdığı neftin hazırda yeganə alıcısı İsraildir. Bunu da satan Türkiyədir. Yəni bu neft Türkiyə üzərindən satılır. İsrailin aldığı avtomobillərin 70 faizi Türkiyədə istehsal olunur. Ərdoğanın bu cür siyasət aparması seçiciyə, daxildən səs almağa yönəlik bir propoqandadır. Türkiyə ilə İsrailin münasibətləri o qədər də pis deyil. Düzdür, bəzi silah alqı-satqı müqavilələri və sair ləğv olundu. Amma bu, münasibətlərin sıfır nöqtəyə çatması mənasına gəlmir".

❑ **Etibar SEYİDAĞA**

# Ermənilər Avropa Yay Oyunlarına gəlsə...

## QAT sədri aksiyalar olacağını dedi; Akif Nağı həbs oluna bilər

**2015-ci ildə Bakıda Avropa Yay Oyunları keçiriləcək. Avropa Olimpiya Komitəsi (AOK) bu yarışda Ermənistanın da iştirakını təmin etməyə çalışır. AOK prezidenti Patrik Xikki bu məqsədlə oktyabrın 11-14-də Ermənistanda səfərdə olacaq. Komitə rəhbəri Ermənistanın Milli Olimpiya Komitəsinin rəhbərliyi ilə müzakirələr apararaq, bu ölkə nümayəndə heyətinin gələn ilin yayında Bakıda keçiriləcək ilk Avropa Yay Oyunlarında iştiraka razı salmağa çalışacaq.**

"Prezidentin işi bütün Avropa ölkələrinin idman tədbirində iştirakını təmin eləməkdir. Biz bütün 49 ölkənin iştirakının təmin olunmasını istəyirik. Mən əminəm ki, bütün ölkələr turnirdə təmsil olunacaq", - deyə AOK rəhbəri qeyd edib.

Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı isə "Yeni Müsavat"a bildirdi ki, birmənalı olaraq ermənilərin Bakıya gəlməsinə qarşıdırlar. QAT sədri qeyd etdi ki, bu halda Bakıda etirazlar olacaq, tədbirlər təşkil ediləcək, aksiyalar keçiriləcək. A.Nağı hesab edir ki, Avropa Qarabağ məsələsinə ikili standartlarla yanaşır və Azərbaycan hökuməti ermənilərin Avropa yay Oyunlarında iştirakına razılıq verməməlidir:

"Biz nə qədər ki, müharibə vəziyyətindəyik, onların Azərbaycana girişi olmamalıdır. Heç bir beynəlxalq təşkilat da onların bura gəlməsinə cəhd etməsin. Azərbaycanın da bu məsələdə özünü demokratik göstərməsi lazım deyil. Çünki ermənilərin Bakıda gəlib hər hansı tədbirdə iştirak etməyə haqqı yoxdur. Çünki onlar sivil deyillər".



**Akif Nağı**

QAT sədri əlavə etdi ki, Avropa üçün ermənilər gülməşəkər olub: "Avropa Olimpiya Komitəsinin rəhbəri Ermənistana gedəcək. Onları razı salmağa çalışırlar. Bu ermənilər nə gülməşəkər olub belə, onlarla danışırlar? Erməniləri zorla Bakıya gətirmək istəyirlər.

Əgər bunu Azərbaycan qarşısında şərt kimi qoysalar, o halda hakimiyyət olimpiya oyunlarının təşkilindən imtina etməlidir. Bəziləri söyləyirlər ki, idman, mədəniyyət tədbirləri başqadır. Bunu qarışdırmaq olmaz. Mən bu fikirlə razı deyiləm. Onların hamısı siyasətə xidmət edir. Dünyaya nümayiş etdirmək istəyirlər ki, erməni-azərbaycanlı dostluğu yaranır. Buna imkan verilməyəcək. Qarabağ Azadlıq Təşkilatı etirazını bildirəcək".

A.Nağı ermənilərin Bakıya gəlişinə razılıq verilməyəcəyi halda Azərbaycanın imicinə heç bir mənfi xal yazılmayacağını düşünür. QAT sədri onlar gələcəyi halda keçiriləcək aksiyalarda həbs olunacağını da istisna etmir:

**"Heç kəs özünü aldatmasın. Onlar bizim torpaqlarımızı işğal ediblər. İşğalçı dövlət sivil tədbirlərdə iştirak edə bilməz. Aksiyalara gəlincə, həbs də ola bilər. Bu, hərəkətimizi dayandırmır. Ola bilsin ki, tutacaqlar, 10-15 sutka həbs də verəcəklər. Bizi döyülmək, həbs edilmək yolumuzdan döndərə bilməz".**

❑ **E.SALAMOĞLU**

# Düz 23 il bundan əvvəli düşünərkən...



**Hüseynbala SƏLİMOV**

**Çox şeyi unutmaq olmur. Üstündən düz 23 il keçsə də hələ də fikirləşirik ki, görən, o vaxtlar - M.Qorbaçov izolyasiya edilərkən, G.Yanayev və komandası "titrəyən əllər"ilə hakimiyyəti götürmək istərkən, qorxu, bəli, qorxu hissi var idimi?**

Nə qədər çalışırıq, ha yaddaşımızı qurdalamağa cəhd edirik, amma xatırlaya bilmirik və bilmirik ki, artıq üstündən bir xeyli keçdiyinə görə bunu unutmuşuq, yoxsa bu hiss elə lap əvvəldən olmamışdı?

Bəzən elə olur ki, insan əməllərinin hansı nəticələr verəcəyindən bixəbər olduğundan, bunu bilmədiyindən qorxmur. Bəlkə də o vaxt hamı hakimiyyətə qarşı çıxmağın nə kimi hüquqi nəticələri ola biləcəyini bilmirdi.

Ola bilsin, 37-ci ili görmüş, o dövrü ağıl süzgəcindən keçirmək imkanları olanlar daha ehtiyatlı idi. O vaxtkı hərəkatda isə ən yaşlıların əksəriyyətinin yaşı heç 50-ni keçmirdi.

Bəli, bu, əsasən, cavan nəsil idi. Cavanlar isə öz hərəkətlərinin nəticələrinin fərqində olmurlar. Nahaq yerə demirlər ki, səhv etmək cavanların imtiyazıdır...

Həm də artıq 20 Yanvar olmuşdu. Tutulmaq, təqib olunmaq, işdən qovulmaq imkanları o vaxt da-20 Yanvardan dərhal sonra da vardı.

20 Yanvardan sonra yenidən hərəkata, siyasi fəaliyyətə qayıdanlar üçün artıq heç nə qorxulu deyildi, çünki onlar 20 Yanvarı keçib gəlmişdilər.

Amma hər şey başqa cür də ola bilərdi. Çox adam deyir ki, SSRİ dinc şəkildə, az qala bircə güllə atılmadan çökdü.

**Amma belə idimi? Məsələ bundadır ki, Moskva, ümumiyyətlə, Rusiya o vaxta qədər azadlıqdan məst olmuşdu.** Güllələr isə ucqarlarda - Vilnüsdə, Tbilisidə və Bakıda atılırdı.

Elə bu səbəbdən dövlət çevrilişi cəhdi və ya o vaxt deyildiyi kimi, "QKÇP", bu insanlar üçün əvvəl şok oldu. Onlar hətta nəyin baş verdiyini anlamadılar. Amma bir gün keçdi, elə bil qəflət yuxusundan ayıldılar... Sonrası... Sonrası da hamıya yaxşı məlumdur...

Amma o vaxtdan xeyli sual qaldı: M.Qorbaçovla əlaqə həqiqətənmi yox idi? Doğrudanmı, dövlət çevrilişinə ciddi şəkildə cəhd vardı? Əgər vardısa, az bir müddətdən sonra bu adamları niyə əfv etdilər? Niyə bu vaxta qədər həmin gün baş verən hadisələr ciddi şəkildə araşdırılmır?

Bu vaxta qədər "QKÇP" ilə bağlı bir əsas arqument var: bu hadisə yeni ittifaq müqaviləsinin bağlanması ərəfəsində baş verdi. Yəni, o vaxtkı partiya bossları gördü ki, ay aman, İttifaq, yeni SSRİ əldən gedir...

Amma tərsinə oldu. Bu hadisədən dərhal sonra SSRİ buraxıldı, üç müttəfiq respublika MDB-ni yaratdıqlarını bəyan etdilər və bundan sonra da MDB oyunu başladı...

Bir az əvvəldə dedik ki, Rusiya o illərin ağırlığını ən az çəkmiş ölkədir. Bu ölkə üçün "QKÇP"-dən sonra çox şey bitdi, sakitləşdi, ağır iqtisadi islahatlar dövrü başlandı və bu dövr də digər respublikalarda olduğu kimi başa çatdı- Rusiyada "Günahkar A.Çubaysdır!"- deyib bunu da, iqtisadi islahatları da birtəhər başa vurdular...

**Amma digər respublikalar hələ neçə "QKÇP" qorxusu yaşayacaqdı. Neçə dəfə SSRİ-ni bərpa etmək cəhdi olacaqdı?..**

Hələ bu gün də bu cəhdlər baş verir. SSRİ-dən danışmaq prezident Vladimir Putin üçün nəinki adi məsələdir, hətta onun ən sevimli mövzusudur.

Bu günlərdə Rusiya mətbuatına baxdıq ki, görək, onlar "QKÇP" haqqında nə yazırlar? Gözümüzə bir yazı sataşdı. Orada da deyilirdi ki, həmin günlər üçün ən böyük cavab Krım, bəli, Krımın ilhaqı oldu...

Deməli, "QKÇP" ruhu hələ də bu ölkədə yaşayır... Hələ neçə dəfə bu ölkə öz qonşularına səksəkəli günlər yaşadacaq....

Hətta xarici müəlliflər bu günə qədər təəccüb edirlər ki, necə oldu ki, SSRİ boyda dövlət demək olar ki, qansız-qadasız, bircə güllə atılmadan çökdü? Amma bu, olduqca səthi yanaşmadır. SSRİ-yə görə qan 20 Yanvarda Bakıda axıdıldı... SSRİ-yə görə qan Gürcüstanda axıdıldı. SSRİ-yə görə qan elə indi Ukraynada axıdılır...

Tarixdə hələ bir dəfə belə olmayıb ki, bir imperiya çökəndən sonra yenidən bərpa olunsun. Amma Rusiyada buna cəhd ediblər və indi də edirlər...

Heç vaxt yadımızdan çıxmaz. "QKÇP" günlərində Rusiyada olmuş və prosesləri yaxından izləmiş bir xarici jurnalist yazmışdı ki, təəssüf ki, dövlət çevrilişi etmək istəyənlərə, ölkəni geriyə sürükləməyə çalışanlara qarşı etiraz heç də kütləvi olmadı.

**Çoxmilyonlu və böyük Rusiya üçün etiraz edənlərin sayı az idi...**

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014

**Əfsanə Bayram qızı Ələsgərli 1985-ci il dekabrın 29-u Bakıda anadan olub. 2003-2007-ci illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin bakalavr pilləsini, 2007-2009-cu illərdə Xəzər Universitetində beynəlxalq jurnalistika ixtisasına aid magistr pilləsini fərqlənmə ilə bitirib. 2010-cu ildən "Xalq qəzeti"nin əməkdaşıdır.**

# Kişi və qadın bərabərliyi?!

Gender onun maraqlandığı sahələr arasında önəmli yer tutur. Müasir dövrdə cəmiyyətdə qadın və kişilərin hüquqi, sosial, mənəvi baxımdan bərabər olması sağlam ailə institutunun inkişafı deməkdir. Gender və media münasibətləri onun araşdırdığı mövzulardandır.

### Media güzgüsündə qadınlar "zərərçəkmiş", kişilər "ciddi" və "işgüzardır"

Əlində pivə dolu bakalı başına çəkən qızın yarıaçıq sinəsi, adanın ortasında tək qalmış oğlanın sonuncu arzusu-maşın kənarındakı yarçılpaq qızların hay-küyü fonunda "qayıq istəyə bilməzdin?"-deyə ona tuşlanan məzəmmət dolu suallar, məişət zorakılığı ilə bağlı qətlə yetirilən qadınların acı hekayəsi, ailəsini atıb gedən qadının "günahkar obyekt" olması, piyadanı vurub qaçan xanımların tənqidi və s. Demək olar ki, hər gün mediadan izlədiyimiz bu tipli mənfi emosiyalı xəbər və çarxlar özümüz də bilmədən kütlədə qadınlarla bağlı qəlibləşmiş stereotip yaradır. Daha çox auditoriyanın diqqətini cəlb etmək naminə qadınların xarici görünüşünü, mənfi fəaliyyətini hədəf götürən KİV bundan reytinq qazansa da, mediada və cəmiyyətdə cinslər arasında ayrı-seçkiliyin təməlini qoyur. Bu gün həm beynəlxalq media, həm də Azərbaycan mediasında gender bərabərliyinin təminatı hələ də aktual problem kimi qalmaqdadır.

### Gender stereotipləri - bunları kim yaradır?

Hər şey ana bətnindən başlayır. Ananın "körpəm qızdır, yoxsa oğlan?"- deyə düşünməsi həmin andan gələcək körpənin stereotiplərlə böyüməsinin təməlini qoyur. Qız uşaqlarının əlinə gəlincik, oğlan uşaqlarına isə maşın verilir. Ana bətnindəki körpənin qız olması bəzən onun doğulmadan "həyatla vidalaşmasıyla" nəticələnir. Nəticədə əhalinin demoqrafik balansını pozan, gələcəkdə böyük problemlərin təməlini qoyan "selektiv abort" termini gündəmə gəlir. "Nəslin davam etdirilməsi arzusunda olan" kişilərin istəyi ilə neçə-neçə qız "soyqırım"a məruz qalır, əksinə, gələcəkdə bəlkə də ən qatı cinayətkara çevrilən, tüfeyli həyat yaşayacaq, ailə dəyərlərindən məhrum oğlanlar dünyaya gəlir. 2014-cü ilin ilk iki ayının məlumatına görə, doğulanların 53,6%-i oğlanların, 46,4 %-i qızların payına düşür.

Reklamlarda kişilər daha çox ciddi, işgüzar rəsmi üslubda təsvir edilir, onların karyerasında uğurları daha çox qabardılır. Medianın formalaşdırdığı gender stereotipləri reklamlarda qadınların iki obrazını yaradır; onları ya paltar və qabyuma şəraitində evdar xanım, ya da kişiləri cəlb edən cəzbedici xanım obrazında təsvir edir. Mebel, kompyuter, əşya, ətir, maşın kimi reklamların çoxunda əsas ssenari cəlbedici qadın obrazının üzərində qurulur. Karyerasında uğur qazanmış, cəmiyyətdə ictimai-siyasi, mədəni, sosial fəaliyyəti ilə seçilən ağıllı, dünyagörüşlü qadın obrazına, demək olar ki, rast gəlinmir.

### Mediada qadın obrazı: "Cazibədar", "cinayətkar", "zərərçəkmiş"...

Bir sıra ölkə KİV-ndə qadın obrazları daha çox "ana", "həyat yoldaşı", "zorakılıq qurbanı", "zərərçəkmiş şəxs", ya da daha çox xarici görünüşü ilə diqqət çəkən "dünya ulduzları" rollarında təqdim edilir. Bütün bunlar heç biri cəmiyyətdə tipik qadın obrazı ilə üst-üstə düşmür.

Azərbaycan KİV-də aparılan kiçik araşdırma bu durumun o qədər də fərqli olmadığını göstərir. Mediamızda yayımlanan sərlövhələrin məzmunu bunu sübut edir. Məsələn: "Çılpaqlıq deyil, gözəllikdir", "Bakıda qadın sürücü qəza törətdi", "Qadın siyasətçi kişi çıxdı", "Namus üstündə bıçaqlanan gəlin danışdı", "Ağlasığmaz vəhşilik: qadın sevgilisini öldürdü" və s.

Cəmiyyətimizdə mental dəyərləri də nəzərə alsaq, məqalələrinin sərlövhələrində qadınlara qarşı mətnaltı olan qınağı hiss etmək olar.

Bəzi əcnəbi ölkələrin medialarında da gender bərabərliyinin təminatında boşluqlar var. Ciddi qəzet və jurnallar qadınların biznes, siyasət kimi sahələrdə fəaliyyətinə demək olar ki, yer vermir, yaxud da az yer verir. Rusiya KİV-də aparılan araşdırmalara görə ictimai-siyasi qəzetlərdə qadınlara aid mövzulara ayrılan yer (estrada ulduzları, fahişəliklə məşğul olan qadınlar da daxil olmaqla) 1996-cı ildə 1%, 1998-ci ildə isə 1,5% olub. Türkiyə mediasında da namus və ya törə cinayətləri, qadın hüquqsuzluğunun fonunda "məhkum" qadın obrazı canlandırılır. İctimaiyyətdə tanınan məşhur mədəniyyət, incəsənət qandınlarının şəxsi həyatı kimi mövzular maqazin proqramlarında və dərgilərində əsas yer tutur.

### CEDAW və Azərbaycan mediası

Qadınların vətəndaş kimi ictimai həyatın müxtəlif sahələrində cinsi ayrı-seçkiliyə məruz qalması, hüquqlarını yetərincə bilməməsi BMT-nin də diqqətində olub. Nəticədə Baş Məclisin 34 /180 saylı 18 dekabr 1979-cu il tarixli qətnaməsi qəbul edilib. 1981-ci il sentyabrın 3-də "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya (CEDAW) qüvvəyə minib. Ölkəmiz özündə vacib məqamları əks etdirən Konvensiyaya 1995-ci ildə qoşulsa da, bu sənədə aid Fakültativ protokolu 2001-ci ildə ratifikasiya edib.

Düzdür, CEDAW-ya qədər BMT qadın hüquqlarının müdafiəsi ilə bağlı bir sıra qanunvericilik aktları qəbul edib. Lakin CEDAW gender bərabərliyinin təmin edilməsində media üçün mühüm mənbə hesab edilməlidir.



### Nə etməli, necə etməli?

Hər bir ölkə media və reklamlarda gender bərabərliyinin təmin edilməsini müxtəlif üsullarla reallaşdırır. Məsələn: Xorvatiyada mediada yanlış gender stereotiplərinə qarşı mübarizə aparmaq məqsədilə 2006-cı ildə meydana gəlmiş media xeyriyyəçi heyəti yaradıldı və dövlətin maliyyə dəstəyi ilə bir müddət mediada yayımlanan məqalələrin təhlili aparıldı. Norveçdə cinslərin hüquq bərabərliyi prinsiplərini pozan reklamlar marketinq haqqında qanunun ilk maddəsi ilə qadağan edilir. ABŞ-da reklam fəaliyyətinin müşahidəsi ilə bağlı milli şura fəaliyyət göstərir, onun əsas işi qadınlara qarşı ayrıseçkiliyi, reklamlarda qadınların mənfi təsvirini araşdırmaqdır. İspaniyada 1994-cü ildə yaradılmış hökumət proqramının əsas məqsədi isə KİV-də və reklamlarda qadın stereotiplərini dəyişmək, onların "seksual obyekt" kimi təqdimatına son qoymaqdır.

1996-cı ilin aprelində Avropa Birliyinin qəbul etdiyi "Reklam və KİV-də qadın obrazı haqnqınnda" adlı qətnaməsi qurumun üzv ölkələri üçün bir çağırış rolunu oynadı.

### Təklif vacibdir, əməl etmək ondan da vacibdir...

Mediada qadınlara qarşı ayrı-seçkiliyin olması bir sıra amillərlə izah edilir. Gender və qadın problemləri ilə kifayət qədər bilgilərin olmaması, mövzuya yalnış mövqedən yanaşılması, yalnış gender stereotiplərinin formalaşması, kişilərlə müqayisədə qadınların mediada daha çox qınaq obyekti kimi təsviri və s. Lakin medianın bu problemləri aradan qaldırmaq üçün kifayət qədər imkanları var. Onları aşağıdakı kimi xarakterizə etmək olar:

- Jurnalistlər üçün gender bərabərliyinin təminatı ilə bağlı seminar və təlimlərin keçirilməsi. Bu istiqamətdə medianın müntəzəm monitorinqinin aparılması və nəticənin ictimaiyyətə açıqlanması;
- KİV materiallarında cinsi ayrı-seçkiliyə yol verən ifadələrdən qaçılması. Məsələn: "kişi sürücü", "kişi həkim" demədiyimiz kimi "qadın sürücü", "qadın həkim" kimi ifadələrin yersiz yerdə işlənilməsindən uzaq durmaq;
- Cəmiyyətdə gender bərabərliyinə mane olan mental dəyərlərə qarşı müxtəlif bölgələrdə iş aparılması. Bu silsilə tədbirlərin KİV-in diqqət mərkəzində olması;
- Cəmiyyətin müxtəlif sferalarında (siyasət, iqtiadiyyat, idman, ordu) uğur qazanmış və cəmiyyətə örnək ola bilən qadınların uğur hekayələrinə daha çox yer ayrılması;
- Qadın hüquqları, gender məsələləri ilə məşğul olan QHT-lərlə medianın əməkdaşlığının güclənməsi;
- Medianın gender siyasəti ilə bağlı qaydalar toplusunun hazırlanması;
- Redaksiyalarda işçilər arasında gender bərabərliyinin təmin edilməsinə nəzarət;
- Mediada, demək olar ki, işıqlandırılmayan və azlıqda qalan qadın qruplarının araşdırılması, onların həyatının işıqlandırılması (ahıl, əlil, məhkum qadınlar və b);
- Gender bərabərliyinin qanunvericilikdə qəbul edilən bütün hüquqi aktlarda əksini tapması;
- Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılmasına yönələn sosial reklam və qısametrajlı filmlərin çəkilməsi;
- TV və radioda genderlə bağlı ayrıca debat və verilişlərin təşkili.

**❑ Əfsanə BAYRAMQIZI**

Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və D.Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiya tərəfindən icra edilən və ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşən Counterpart İnternationalın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən «CEDAW ƏMƏLDƏ» adlı layihəsi üçün hazırlanıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014

# Minsk Qrupuna və KTMT-yə alternativ layihədə açar ölkə - Türkiyə...

**Ankaranın Azərbaycan və Gürcüstanla hərbi alyans yaratmaq planı ilə MQ formatını dəyişdirmək ideyası zaman etibarilə üst-üstə düşür; Ermənistan hər iki məsələdə qardaş ölkənin siyasi-diplomatik fəallığından narahat olmağa başlayıb; "Türkiyə hansısa oyuna girməyə hazırlaşır..."**



**Naxçıvanda Azərbaycanın, Gürcüstanın və Türkiyənin müdafiə nazirləri - Zakir Həsənov, İrakli Alasaniya və İsmət Yılmaz arasında ilk dəfə olaraq üçtərəfli görüş keçirildi. Görüşdə regiondakı hərbi-siyasi durum və təhlükəsizlik məsələləri ətrafında geniş fikir mübadiləsi aparıldı, hərbi sahədə əməkdaşlıq üzrə qarşılıqlı maraq doğuran məsələlər diqqət mərkəzində saxlanıldı.**

**Bundan əlavə, qərar qəbul olundu ki, müdafiə nazirləri yeni formatda hər altı aydan bir görüşsünlər.** Görüşdə üç ölkənin Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılması və qarşılıqlı əməliyyat uyarlığının əldə edilməsi məqsədilə üçtərəfli birgə hərbi təlimlərin keçirilməsinin, habelə hərbi təhsil və hərbi-texniki sahələrdə əməkdaşlığın üçtərəfli formatda qurulması, neft və qaz kəmərlərinin mühafizəsi üzrə ortaq təlimlərin həyata keçirilməsi də məqsədəuyğun hesab edildi.

Şübhə yox ki, Qərbin, ələləxüsus ABŞ-ın da marağında olan bu formatın davamlı olması və gələcəkdə real məzmun qazanması ən əvvəl Rusiyanın maraqlarına ziddir. Açıqlamalardan da göründüyü kimi, belə format həmçinin, erməni generallarının vaxtaşırı Bakı-Tiflis-Ceyhan neft, Bakı-Tiflis-Ərzurum qaz kəmərlərini hədəfə alına biləcəyi barədə səslənən təhdidlərinə verilən operativ və sanballı cavabdır. Eyni zamanda təbii ki, Ermənistanın 1 nömrəli müttəfiqi Rusiyaya ünvanlanmış çəkindirici mesajdır.

***

**Rəsmi açıqlamalar öz yerində, üç nazir arasında yəqin ki, mahiyyəti hələ ki, mətbuata bəlli olmayan müzakirələr də aparılıb.** Görüşü şərh edən hərbi ekspert Üzeyir Cəfərov isə güman edir ki, üç ölkə hərbi nazirlərinin bir araya gəlməsini Rusiyanın yaratdığı və dominant olduğu, Baş Qərargahı İrəvanda yerləşən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) analoqunu yaratmağın ilkin mərhələsidir.

**Onun sözlərinə görə, hazırda Azərbaycan, Türkiyə və Gürcüstan arasında hərbi sferada əhatəli əməkdaşlıq mövcuddur:** "İndi isə dünyada gedən proseslərlə əlaqədar bu dövlətlər hərbi birlik yaratmaq istəyir. Bu birliyə az sonra KTMT-nin bəzi üzvlərinin qoşulacağı da istisna deyil".

Hərbi ekspert əmindi ki, bu, Türkiyənin təşəbbüsüdür: "Naxçıvan görüşündən sonra analoji görüşlər Tiflisdə və İstanbulda keçiriləcək. Və məhz İstanbul toplantısından sonra yeni əsgəri birliyin yaradıldığı bəlli olacaq. İlkin mərhələdə anlaşmanı Türkiyə, Azərbaycan və Gürcüstan imzalaya bilər. Sonrakı perspektivdə isə ona Qazaxıstan, Qırğızıstan kimi türkdilli dövlətlər qoşula bilər (sonuncu iki ölkə KTMT üzvləridir - s.s.)".

**Göründüyü kimi, söhbət faktiki surətdə mini-NATO-nun (Elxan Şahinoğlu) yaradılmasından gedir.** Bu xüsusda Türkiyə müdafiə naziri İsmət Yılmazın dedikləri də diqqət çəkir və həm Ermənistana, həm də əlləxüsus Rusiyaya xəbərdarlıq mesajı sayıla bilər: "Biz bir daha Azərbaycan və Gürcüstana bütün sahələrdə, o cümlədən müstəqillik və ərazi bütövlüyü məsələlərində dəstəyimizi ifadə eldik. Biz bölgəmizdə konfliktlərin ölkələrin ərazi bütövlüyü çərçivəsində və dinc həllinin tərəfdarıyıq".




**"Ankaranın bölgədə Qərbin də strateji maraqlarına cavab verən qurucu, tarazlayıcı və qarant rolu artır..."**

**Türkiyəli nazirin başqa bir dəyərli mesajı: onun sözlərinə görə, bütün dünya Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzrum energetik layihələrini, həmçinin, Transanadolu qaz və Bakı-Tiflis-Qars dəmiryolu layihələrinin reallaşmasını diqqətlə izləyir:** "Əvvəllər bu layihələr müəyyən mənada qeyri-real sayılırdısa, bu gün onlardan ikisi artıq gerçəkləşib, daha ikisi isə reallaşma mərhələsindədir".

**Yeni türkiyəli nazir bunun-la açıq-aşkar transmilli layihələri hədəf almaq istəyən qüvvələrə bir ismarış göndərmiş olub.** Eyni zamanda nazirin açıqlamasından bir daha bəlli olur ki, regionda yeni hərbi alyansın qurulması təşəbbüsü həqiqətən Türkiyəyə məxsusdur. Türkiyənin bölgədə Qərbin də strateji maraqlarına cavab verən qurucu, tarazlayıcı və qarant rolu artır ki, bu da ilk növbədə Azərbaycanın mənafeyi ilə tam səsləşir.

***

**Gözlənildiyi kimi, Türkiyə, Azərbaycan və Gürcüstan müdafiə nazirlərinin Naxçıvandakı üçtərəfli görüşü işğalçı Ermənistanda ciddi narahatlıq doğurub.** Qonşu ölkədə həm bu fakt, həm də ümumiyyətlə, Türkiyə amilinin bölgədə tədricən artan təsirləri xüsusilə həyəcan və maraqla izlənməkdədir. Erməni ekspert dairələrində Türkiyənin mərkəzində olduğu başqa bir prosesdən, yaxud plandan əndişə özünü göstərməkdədir.

Məsələn, Türkiyənin ilk dəfə olaraq Azərbaycanın yaralı hərbçilərini qəbul eləməsi və ölkənin yüksək çinli rəsmilərinin dərhal onlara baş çəkməsi, o sırada parlament sədri Cəmil Çiçəyin hərbçiləri yoluxandan sonra Minsk Qrupunu adı olub özü olmayan qurum adlandırması, eləcə də digər rəsmilərin bənzər bəyanatlar səsləndirməsi, bütün bunların isə Soçi görüşündə Putinin Minsk Qrupunun vasitəçiliyini faktiki şübhə altına alması fonunda baş verməsi erməni tərəfində belə bir qənaət formalaşdırıb ki, Ankara Qarabağ məsələsində Moskva ilə tandemdə yenidən aktiv vasitəçiliyə qayıtmaq istəyir. Erməni ekspertlərə görə, bu ehtimalı son zamanlar Rusiya ilə Türkiyə arasında yaxınlaşma prosesi də mümkün edir.

Ayrı sözlə desək, təkcə KTMT-yə yox, Minsk Qrupuna da alternativ məsələsi gündəmə daşınmaqdadır. Sitat: "Bu nöqteyi-nəzərdən əlamətdardır ki, cəbhə xəttindəki məlum gərgin günlərdə Türkiyə özünü elə də büruzə vermədi, yaxud fəal olmadı, Soçi görüşündən sonra isə Türkiyə məmurları bir-birinin ardınca azərbaycanlı əsgərlərin durumu ilə maraqlanmağa başladılar. Yəni Ankara deyəsən tədricən hansısa oyuna girməyə hazırlaşır. Nəzərə alsaq ki, Türkiyə Minsk Qrupundan narazıdır, o zaman ehtimal eləmək olar ki, o, Rusiya ilə növbəti dəfə Minsk Qrupu formatının dəyişdirilməsi məsələsini irəli aparmağa çalışacaq".

Ancaq son illər Rusiya ilə Türkiyə arasında iqtisadi-ticari, energetik, mədəni-turizm sahələrində yaxınlaşma müşahidə edilsə də, Kremlin Güney Qafqazla bağlı kimsəyə güzəştə gedə bilmədiyi vazkeçilməz maraqları da var. Onlardan biri və birincisi, əlbəttə ki, Dağlıq Qarabağ, digəri isə Ermənistan-Türkiyə sərhədləri məsələsidir.

**Bu iki məsələ region uğrunda savaşda Rusiyanın, necə deyərlər, istifadə edəcəyi sonuncu patronlar qismindədir. Amma böyük siyasətdə hər şey mümkündür. Nə bilmək olar, bəlkə iqtisadi sanksiyalarla gündən-günə zəifləyən şimal qonşumuz günün birində hər iki məsələdə Ankara ilə siyasi bazarlığa getmək zorunda qalacaq...**




## "Estoniya Qarabağ məsələsində Azərbaycanın yanındadır"

### Parlamentin azərbaycanlı üzvü: "Eston xalqı və dövləti heç vaxt bunu unutmur ki..."

**"Bu gün Estoniya dövləti, o cümlədən parlamenti Dağlıq Qarabağın Azərbaycanın ərazisi olması məsələsində rəsmi Bakının mövqeyini birmənalı dəstəkləyir". Bunu APA-ya açıqlamasında Estoniya parlamentinin azərbaycanlı deputatı Eldar Əfəndiyev deyib.**

Rəsmi Tallinin işğal faktını pislədiyini söyləyən Əfəndiyev bildirib ki, bir müddət əvvəl ermənilərin parlamentə təqdim etməyə cəhd göstərdikləri qondarma "erməni soyqırımı" layihəsi rədd edilib və hətta xəbərdarlıq olunub ki, belə bir layihə bir daha gündəmə gətirilməsin: "Bütün bunlar təbii ki, səbəbsiz deyil. Estoniya-Azərbaycan əlaqələrinin möhkəm olması ilə yanaşı, burada yaşayan azərbaycanlıların da bu məsələdə rolu çox böyükdür. Məsələn, azərbaycanlılar yeganə milli azlıqdır ki, 1988-ci ildə Estoniyada milli azadlıq hərəkatı başlayanda Estoniyanın müstəqilliyini açıq şəkildə dəstəkləyiblər. Bunu eston xalqı və dövləti heç vaxt unutmur. Bu mühiti dəyərləndirən Azərbaycan diasporu təbii ki, Azərbaycan və işğal olunmuş torpaqlarla bağlı yerli ictimaiyyəti yaxşı məlumatlandıra bilir".

E.Əfəndiyevin sözlərinə görə, Estoniyada Azərbaycan cəmiyyətlərinin rolu xeyli güclənir və bu, tezliklə dövlət strukturlarında azərbaycanlıların yeni postlar tutması ilə nəticələnə bilər.

**E.Əfəndiyev 1954-cü ildə Tallində doğulub və əslən Azərbaycanın Şəki rayonundandır. O, artıq ikinci dəfədir Estoniya parlamentinin deputatı seçilir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**



## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbəbəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impotensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq borularını keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**


# Hökumət dəbdəbəli ehsanlara qadağa qoydu

## Yas məclislərində yemək verilməsi yasaq edilir; hüzn mərasimlərində yalnız çay veriləcək; QMİ hökumətin addımını dəstəklədi...

**Azərbaycanda uzun illərdir az qala ictimai bəlaya çevrilmiş israfçı yas mərasimlərinə son qoyulur. Özü də birbaşa dövlətin müdaxiləsi ilə. Redaksiyamıza çatan məlumata görə, artıq hökumət yas mərasimlərində həddən artıq israfçılığa səbəb olan ehsan süfrələri "adətini" ləğv etməyə qərar verib.**







Bu günlərdə Bakı şəhərinin rayonlarında yerli ruhanilər, dini icma rəhbərləri rayon icra hakimiyyətlərinə dəvət olunub. Ruhanilərə bildirilib ki, artıq bundan sonra yas mərasimlərində ehsan süfrəsində xörək, meyvə və bu kimi digər qidaların verilməsi qadağan olunur. Yas mərasimlərində ehsan süfrələrinə yalnız çay verilə bilər.

Din xadimlərinə o da bildirilib ki, uzun illər hökumət bu sahədə tənzimlənmənin olmasına çalışıb, ancaq təbliğat və ya çağırışla bu, mümkün olmayıb. Buna görə də artıq qərar məcburi olacaq və yas mərasimlərində yemək verməkqadağan ediləcək. O da bildirilib ki, bu məsələ birbaşa ölkə başçısının diqqətindədir, yas məclislərində israfçılığın aradan qaldırılması üçün din xadimlərinin dəstək verməsi, insanlara çağırış etməsi tövsiyə olunub.

Qeyd edək ki, Azərbaycanda bir neçə dəfə yas mərasimlərindəki israfçılığın qarşısını almaq cəhdləri olsa da, bu, nəticəsiz qalıb. Yalnız Naxçıvanda yerli rəhbərliyin sərt qadağası nəticəsində ehsan süfrələri qənd-çayla məhdudlaşdırılıb. İndi isə analoji qayda bütün ölkə boyu tətbiq ediləcək. Uzun illər Azərbaycanda mütərəqqi din xadimləri, mətbuat bu sahədə çağırışlar etsə də, xalq arasında formalaşmış ehsan süfrələri ənənəsini aradan qaldırmaq mümkün olmayıb. Bu qaydanı aradan qaldırmaq üçün yeganə yol məcburiyyət, yəni bu adətin məcburi qaydada xüsusi qadağa ola bilərdi. Bu mənada hökumətin bu addımı mütərəqqi din xadimləri, ziyalılar və ölkə əhalisinin böyük hissəsində rəğbətlə qarşılanacağı şəksizdir.

Onu bildirək ki, bizə çatan bilgilərə görə, bu qadağa yalnız yas mərasimlərində açılan ehsan süfrələrinə aiddir. Dini əlamətdar günlər, o cümlədən Ramazan və Məhərrəm ayları mərasimləri, həmçinin şəhidlər üçün açılan ehsan süfrələrinə qadağa qoyulmayıb.

Qeyd edək ki, Azərbaycanda zaman-zaman yas və toy mərasimlərinin sadə keçirilməsi ilə bağlı çağırışlar olub. media bu mövzuya böyük diqqət ayırıb. Ancaq bu cür çağırışlar faktiki olaraq nəticəsiz qalıb. Bəs, ölkənin baş dini idarəsi olan Qafqaz Müsəlmanları İdarəsi hökumətin bu qərarına nə deyir?

**QMİ-nin mətbuat xidmətinin rəhbəri Rəhimə Dadaşova** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, QMİ hökumətin bu addımını dəstəkləyir: "Dövlətin bu təşəbbüslərə münasibətini, əsl dini qaydaların təşəkkül tapmasını dəstəkləyirik".

**QMİ-nin sözçüsü onu da bildirdi ki, İdarə bir neçə il əvvəl bu barədə geniş toplantı** keçirərək ictimaiyyətə toy və yas mərasimlərində israfçılığa yol verilməməsi ilə bağlı çağırış edib. R.Dadaşova onu da bildirdi ki, "Təzəpir" məscidində yerləşən mərasim zallarının girişində lövhələrdə mərasimlərin təşkili, dinin israfa münasibəti, din adı ilə mərasimlərin keçirilərək dindən sui-istifadə olunması ilə bağlı məlumatlar yerləşdirilib.

**Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və Elmi-Dini Şurasının 2011-ci il iyulun 13-də keçirilən toplantısında xalqa müraciət edilib.** QMİ-nin saytında yerləşdirilmiş müraciətdə qeyd olunur ki, hazırda keçirilən yas və toy mərasimləri israfçılıqdan uzaq olmalıdır. Bəyanatda bundan sui-istifadə edənlərin olduğu qeyd edilir: "Əksər hallarda guya bu mərasimlərin milli adət və dini ənənələrə müvafiq olduğunu iddia edənlər öz şəxsi mənafeləri naminə dinimizin qayda və qanunlarını təhrif edirlər. İslam dininin təməl özəlliklərinə, Peyğəmbərimiz Məhəmməd (s) aləmlərə örnək olan şəxsi nümunəsinə və hədisi-şəriflərə istinad edən hər bir şəxs bu məsələnin islami qanunlarla məntiqi uyğunsuzluğunu yaxşı bilir. Mərasimlərdə imkansızlara, ehtiyacı olanların ailələrinə yardım və ehsan etmək islama görə məqbul sayılır".

**Müraciət QMİ insanların daha sadə mərasim keçirmələrinə çağırış edir:** "Ehsan hərfi tərcümədə "yaxşılıq etmək, gözəl iş görmək" mənasını verir. Onun imkansızlara, ehtiyacı olanlara, yetim və kimsəsizlərə verilməsi müstəhəb və bəyənilən əməllərdəndir. Mahiyyətinə görə, ehsan bir kəlmə xoş söz, bir stəkan çay da ola bilər. Bəzi hallarda mərhumun ailəsi özünü əziyyətə salıb, maddi və mənəvi təhlükəyə ataraq, süfrəyə növbənöv təamlar, meyvələr, şirniyyat düzüb özünü kimlərəsə göstərmək xatirinə borcla məclis verir. Bir qədər sonra bu məsuliyyətsiz hərəkəti onu bədbəxtliyə sürükləyəndə günahı özündə deyil, ilahi ədalətsizlikdə axtarır və düşünmür ki, Rəbbimizin əmr və qadağalarına asilik bağışlanılmaz günahlardandır. Xüsusilə Ramazan ayında iftardan əvvəl məclislərdə ehsan adı ilə yemək və çay süfrəsi verilməsi qəti qadağandır və haram hesab olunur".

**❑ KƏNAN**


**Elan**

**Müstafayeva Zərifə Şirvan qızının adına verilmiş müvəqqəti yaşamaq icazəsi olan sənəd itdiyi üçün etibarsız sayılır.**



*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014

**Avqustun 21-i səhər saatlarında daha bir nəfər metronun "Koroğlu" stansiyası yaxınlığındakı körpüyə çıxaraq intihar edəcəyini bildirib. Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin xilasedicilər cəlb olunub, onunla danışıqlar aparılıb. Fəqan Nəsibov adlı bu şəxs körpünün üstündən yerə məktub atıb. Məktubda qeyd olunub ki, Zərdabın icra başçısı Lütfəli Babayev Mingəçevirdə eyni vəzifədə olduğu dövrdə onun 65 min dollarını mənimsəyib. O, etdiyi şikayətlərin nəticəsiz qaldığını yazıb.**

# Bakının "ölüm körpüsü"nə daha bir nəfər çıxdı...

## İcra başçısının aldatdığı şəxs intihara cəhd etdi; Qənirə Paşayeva hadisə yerinə gəldi, Fəqan Nəsibov fikrindən daşındırılaraq Zakir Qaralovun qəbuluna aparıldı, onun şikayəti Korrupsiyaya qarşı Mübarizə İdarəsinə göndərildi

Özünü körpüdən atacağını deyən şəxs millət vəkili Qənirə Paşayevanın ora gəlməsini və onu dinləməsini tələb edib.

Onun həyat yoldaşı Könül Nəsibova musavat.com-a bildirib ki, icra başçısı ərindən pul alıb, qaytarmır.

Daha sonra Qənirə Paşayeva ilə həmin şəxs arasında telefon bağlantısı yaradılıb və millət vəkili əraziyə gəldikdən sonra o intihar etmək fikrindən daşınıb və körpüdən düşürülüb. Hadisə yerinə onun ailə üzvləri də gəlib.

O deyib ki, L.Babayev Mingəçevirin başçısı olduğu vaxtda şəhərdə trolleybus ləğv edilib: "Lütfəli Babayev trolleybus xətlərini satışa çıxarmışdı. Müştəri kimi icra başçısı ilə onun kabinetində görüşdüm. O, ümumilikdə 80-85 ton olan xətlərin bir tonunu 2000 dollara mənə satacağına razılaşdı. Dedi ki, 3 günə qədər bütün sənədlər hazır olacaq və gedib malı ala biləcəyəm. Ancaq sonra icra başçısı məndən beh istədi. Ona 30 min dollar beh verdim".

Şikayətçi deyib ki, bununla kifayətlənməyən icra başçısı müxtəlif bəhanələrlə ondan daha 35 min dollar qoparıb: "Bir neçə ay keçdi. Ancaq Lütlfəli Babayevdən səs-soraq çıxmadı. Təzədən icra başçısının qəbuluna getdim.

Ancaq müxtəlif bəhanələrlə məni qəbul etmədi. Bildim ki, aldadılmışam. Artıq 2007-ci ildən bu yana ölkə başçısına, hüquq-mühafizə orqanlarına şikayətlər etmişəm. Getmədiyim idarə qalmayıb, heç bir nəticəsi yoxdur. Son çarəm intihar etməkdir".

**Bundan sonra Q.Paşayeva ilə birlikdə F.Nəsibov Baş Prokurorluğa gedib. Baş prokuror Zakir Qaralov intihar etmək istəyən şəxsi qəbul edib.**

Z.Qaralov onun şikayətinin araşdırılacağına söz verib. Görüşdən əvvəl isə Q.Paşayeva F.Nəsibova deyib ki, əgər prokurorluğun araşdırmasından narazı qalsa, onunla əlaqə saxlasın.

**Deputat facebook səhifəsində hadisə haqda geniş status yazıb:** "O dəhşətli külək səsi içində şikayətini dinləyərək inanın şikayətinizin obyektiv araşdırılması üçün əlimdən gələni edəcəm, dövlətimiz, onun rəhbəri inanıram ki, bu məsələnin obyektiv araşdırılması üçün əlindən gələni edəcək. Amma yalvarıram ordan düşün deyirdim.

Köməkçim bir az öncə deyir ki, mən sizi heç kimə yalvaran görməmişdim. Mən də deyirəm ilk dəfə idi intihar etmək istəyən şəxslə belə bir vəziyyətdə danışırdım".

**Günün ikinci yarısında Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov** APA-ya bildirib ki, Səbail rayon sakini Nəsibov Fəqan Sabir oğlu baş prokuror Zakir Qaralov tərəfindən qəbul edilərək dinlənilib.

F.Nəsibovun müraciəti baş prokuror tərəfindən nəzarətə götürülməklə şikayət ərizəsində göstərilən xüsusatların qanuna müvafiq qaydada araşdırılması üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

**L.Babayevin müavini Allahverdi Səfərov** isə Az-news.az-a yalnız bunları deyib: "Baş verənlərdən məlumatsızam. Hazırda məzuniyyətdəyəm və kənar yerdəyəm. Fəqan Nəsibov adlı şəxsi tanımıram".

Bir məqamı da yada salaq ki, F.Nəsibov bu il avqustun 1-də Prezident Administrasiyası (PA) qarşısında özünü yandırmağa cəhd etmişdi. PA nümayəndəsi Tağı Tağıyev onu qəbul edib, amma heç nə dəyişməyib. L.Babayev ən çox şikayət edilən icra başçılarından biridir.

**Qeyd edək ki, F.Nəsibov ötən il "Yeni Müsavat"ın redaksiyasına gələrək bu haqda şikayət etmişdi.**

**Onun şikayəti qəzetimizdə çap olunub.**

❑ Məhəmməd TÜRKMƏN






## Psixoloqdan intiharlarla bağlı SOS

### "Özünü öldürmə halları silsilə şəklini ala bilər"



**İntihar etmək istəyənlərin "Koroğlu" stansiyasının yaxınlıqdakı körpüyə çıxması artıq adət halını alıb. Dünən səhər saatlarında Fəqan Nəsibov adlı şəxs körpünün ən hündür yerinə çıxaraq özünü atacağını bəyan edib. Əraziyə Fövqəladə Hallar Nazirliyinin, Baş Prokurorluğun əməkdaşları gələrək, millət vəkili Qənirə Paşayeva gələrək onu fikrindən daşındırıblar. Xilas edilən şəxs probleminin dinlənilməsi üçün baş prokuror Zakir Qaralovun qəbuluna aparılıb.**

Qeyd edək ki, həmin körpüdə eyni hadisə bir müddət öncə də yaşanmışdı. Eləcə də bir neçə gün öncə, Qarabağ qazisi də özünü yandırmaqla problemini ictimailəşdirməyə nail olmuşdu. Hadisələrin gedişatı bu kimi nümayişli intihar hallarının ənənə halını alacağını ehtimal etməyə əsas verir.

**Məsələyə münasibət bildirən psixoloq Azad İsazadə** nümayişli intiharların silsilə xarakter alacağı ehtimalını istisna etmir: "Bu cür intihar cəhdləri bir növ dəb xarakteri daşıyır. Normal bir insanın ağlına gəlməz ki, sabah gedib intihar etsin. Ancaq dərd içində olan və problemini həll edə bilməyən insanlar var. Onlar bu kimi hadisələri görəndə, özlərinə nümunə götürürlər. Bu bütün dünyada belədir. Eyni intihar növləri, özünü asma, yandırma və sair dəb xarakteri daşıyır. Yəni mən yaşamaq istəmirəm, ancaq ölümün yolunu hələ seçə bilməmişəm. Haradansa məlumat gəlir ki, kimsə özünü asıb, mən də həmin hərəkəti təkrar edirəm. Nümunə kimi xatırladım ki, Səddam Hüseynin asılaraq edam edilməsindən sonra silsilə şəkildə özünü asıb intihar edənlər oldu, o cümlədən Azərbaycanda da bu baş verdi".

**Psixoloq bildirib ki, nümayişli intiharlara dövlət səviyyəsində opertiv reaksiya gəldiyindən bu üsul daha cəlbedici görünür:** "Mən saytlardan oxudum ki, Qənirə Paşayeva intihar edənin çağırışını qəbul edib, yüksək rütbəli şəxslər problemin həllinə söz verib. İnsan görür ki, kimsə onu eşitməyə hazırdır. Bu insanların sadəcə olaraq dərdini danışmağa və dinləyənə ehtiyacı var. Bu gün cəmiyyətimizin ən böyük problemi odur ki, biz bir-birimizi eşitmirik. Bəzən bizim problemimizi həll edənə yox, dərdimizə şərik olan adama ehtiyacımız olur. Bir qədər fasilədən sonra, yenidən intiharlar dalğası baş qaldıracaq".

**Azad İsazadənin sözlərinə görə, bu kimi halların qarşısının alınması üçün təcili tədbirlər görülməlidir: "Bu intiharların səbəbini, yaş qruplarını, regionlarını, intihar üsullarını və o şəxslərin problemlərini araşdırmaq, təhlil etmək lazımdır.**

**İntihar etmək istəyən insan bəzən ölməkdən daha çox öz probleminə cəmiyyətin diqqətini çəkmək istəyir. Bu kimi nümayişli intiharların tərkibində belə amillər də olur. İntihar etmək istəyən insan cəmiyyətə göstərir ki, mənim ölümdən daha ağır olan bu kimi problemim var. Nümayişli intiharlara əsasən, özünü yandırmaq və özünü ictimai yerdə hündür bir yerdən atmaq aiddir. Yəni insan ən ağır şəkildə ölməyə hazırdır, təki onun problemini dinləsinlər. Bu səbəbdən ilk növbədə insanların problemini dinləmək və həllinə yardımçı olmaq lazımdır".**

❑ Nərgiz LİFTİYEVA

# Dünyada "buzlu su" çılğınlığı

## ALS xəstələrinə yardım üçün başlanan aksiya sürətlə böyüyür; kampaniyanın təşəbbüskarı dünyasını dəyişdi...

**Bu günlərdə dünyada "buzlu su" çılğınlığı yaşanır... Təqdimat bir qədər şou-biznesvari olsa da, əslində dünya məşhurları ALS xəstəliyinə diqqət cəlb etmək, eləcə də onlara maddi yardım etmək üçün ilginc bir kampaniyaya başlayıblar.**



Aksiyanın prinsipi isə belədir: başına bir vedrə su tökən şəxs (bu, məşhur biri də ola bilər, sıradan biri də) 3 adamı bu hərəkəti təkrarlamağa çağırır. Əgər çağırış etdiyi şəxslər bu addımı təkrarlaya bilməsələr, ALS xəstələri üçün açılmış hesaba 100 dollar ödəməlidir.

Xatırladaq ki, ALS xəstələrinə dəstək aksiyası - "İce Bucket Challenge" adlanır. Amiotrofik Lateral Skleroz (ALS) və ya Şarko xəstəliyi sinir sisteminin sağalmaz xəstəliyidir. Xəstənin şüuru aydın olsa da, o, tez-tez hərəkətdən qalır. ALS əqli keyfiyyətlərə zərər vurmasa da, ağır depressiyalara səbəb olur. Xəstəliyin son mərhələsində nəfəs borusu daralır, tənəffüs çətinləşir. Bu zaman ciyərləri yalnız süni havalandırma ilə fəaliyyətdə saxlamaq olur.

Bu xəstəliyə yoluxanlara dəstək olmaq məqsədilə məşhurlar başlarına vedrə ilə soyuq su tökür və estafeti digərlərinə verirlər. İndiyədək bu kampaniyaya ABŞ-ın keçmiş prezidenti Corc Buş, facebook-un yaradıcısı Mark Zükerberq, "Microsoft"un prezidenti Bil Qeyts, müğənni Jenifer Lopes, Demet Akalın, Hülya Avşar, məşhur futbolçular Neymar və Kristiano Ronaldo, aktyorlar Cim Parsons və Robert Dauni, müğənni Castin Biber, Selena Qomez, italiyalı ulduz futbolçu Mario Balotelli, türkiyəli futbolçu Arda Turan da iştirak edib.

Bu aksiyaya qatılanlar arasında ən maraqlı simalar isə Corc Buş və Bill Klinton olub. Belə ki, Buşun başına buz ilə qatışdırılmış bir vedrə suyu həyat yoldaşı Laura Buş töküb. Bundan sonra isə eks-dövlət başçısı digər eks- prezident Bill Klintonun adın çəkib.

Hazırda bu fondun hesabında 15 milyon dollar pul toplanıb.

Kampanyanın təşəbbüskarlarından biri 27 yaşındakı Corey Griffindir. O, çox yaxın dostu Pete Frates ALS-yə yoluxduğu üçün bu kampaniyaya başlayıb.

**Amma dünən kampaniyanın təşəbbüskarı ilə bağlı da üzücü hadisə baş verib. Bostonlu gənc dəniz qəzasında faciəvi şəkildə dünyasını dəyişib. Yay istirahətini keçirən Griffin iki mərtəbəli bir evin eyvanından özünü suya atıb və bir daha oradan çıxmayıb. Dostları bunun fərqinə varanda isə o, çoxdan dünyasını dəyişibmiş...**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014




**Cümə söhbətləri**

**Bismilləhir-Rəhmənir-Rahim! Mübarək İslam dininin bəşəriyyətə gəlməsinin əsas hədəflərindən biri - insanlardan təqvalı varlıq yetişdirməkdir. Dinimiz hər nə ki, insanı özünü idarə etməkdən uzaqlaşdırır, onlardan çəkinməyi öyrədir. Mübarək dinimiz insana güclü, bacarıqlı olmasını öyrədir.**

# Qəflətdən ayılmaq üçün əməli addımlar

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



### İnsan hansı halda qəzəb qüvvəsindən istifadə edə bilər?

İnsanı özünü idarə etməkdən çıxaran əsas amillərdən biri - qəzəbdir. Qəzəb - ən yaxşı insanı belə məhv edən, dağıdıcı mahiyyət kəsb edən məsələlərdəndir. Qəzəb - insanın öz gücünü, enerjisini, qabiliyyətlərini, potensialını tamamilə dağıdıcı məsələlərə aparan bir qüvvədir. Əziz İslam Peyğəmbəri (s) buyurur: "İnsanların ən yaxşısı o kəsdir ki, gec qəzəblənər və tez razı olar". Biz adətən həyatda bunun əksini müşahidə edirik. Adət üzrə insanlar tez qəzəblənir və gec razı olur. İnsan qəzəb qüvvəsini işə salmağa tələsməməlidir. Ümumən İslami mətnləri təhlil etdikdə belə başa düşülür ki, o şeylər ki, dünya ilə bağlıdır, insan onlara görə qəzəblənməkdən çəkinməyə çalışmalıdır. İlahi mətnlərdən belə anlaşılır ki, insan üçün qəzəb qüvvəsinin istifadə oluna biləcəyi yer - yalnızca Allah düşmənləri ilə qarşı-qarşı gəldiyi zaman üçündür. Sanki, bundan kənar qəzəb qüvvəsinin istifadəsi yanlış və yersizdir. Bəzən insan elə hazırdır ki, qəzəb qüvvəsini işə salsın. Bəzən insan maksimal dərəcədə çalışır ki, qəzəb qüvvəsi işə düşməsin. Təbii ki, bu, müəyyən hazırlıqlar, vərdişlər istəyir. İmanlı, mömin insan kinli, küdurətli olmaz, insanlardan daha tez razı olar. Görər ki, qarşısındakı peşman olub, yalnışlığını anlayıb - razı olmağı kifayət qədər tez hasil olar. İnsanın kin saxlaması - bəyənilməyən xüsusiyyətdir.

### Qəzəbi necə soyudaq?

Həzrət Əmirəlmöminin (ə) buyurur: "Qəzəbinizi susmaqla, nəfsin istəklərini ağılla müalicə edin". Həzrət Əlinin (ə) mübarək tövsiyəsindən belə anlaşılır ki, qəzəb susmaqla müalicə edilər. İnsan susarkən qəzəb qüvvəsinin ifadə imkanı çox az olur. Lakin danışarkən qəzəb daha da alovlanır. İnsan hiss edəndə ki, qəzəb qüvvəsi işə düşə bilər, bunun dərmanı - susmaqdır. İnsan düşünsə, baxsa, fikirləşsə, öz nəfsi istəklərinə dərindən nəzər salsa - nəfsi istəklərin şiddəti də xeyli zəifləmiş olar.

İnsanın bu kimi məsələlərə riayət etməsi üçün, davamlı olaraq təqvaya riayət etməsi lazımdır. İlahi təqvaya riayət etmək isə insanın bu dünyada müvəqqəti olmasını davamlı xatırlamasından keçir. Yəni insan öz müvəqqətliyini daima nəzərdə saxlamalıdır. Bu müvəqqəti həyat bizə əmanət olaraq verilib və biz onunla doğru-dürüst davranmalıyıq. Ölüm yaşa baxmır, məqama baxmır. Ölüm insanı gözləmədiyimiz zamanda, məqamda haqlayır. İnsan diqqətli olmalıdır ki, ölüm hər an qapını döyə bilər və buna hazır olmalıdır. Elə bir insan yoxdur ki, sabah yaşayacağı ilə bağlı əminliyi olsun. Əslində normal halda insan fərqindədir ki, hər an dünyasını dəyişə bilər.

### Həyatın müvəqqətiliyini xatırlamaq insanı təqvaya çatdırar

Həzrət Əli (ə) buyurur: "Ölümdən və onun çətinliklərindən əvvəl bir iş görün və o çatmamış onun hazırlığını görün. O aşağı enməmiş hazır olun". Biz ölümə hazırlaşmalıyıq. Bir il, on il, əlli il sonra olacaqsa da, sabah olacaqsa da hazırlaşmalıyıq. Bizlər dünya işlərində hər şeyə hazırlaşırıq. Həyatımıza baxsaq, demək olar ki, bütün işlərimiz üçün hazırlaşırıq. Məktəb başlamamış məktəb üçün hazırlaşırıq. Yay gəlməmiş yay mövsümündə harada dincələcəyimiz barədə düşünürük və s. Əgər diqqət etsək görəcəyik ki, bizim həyatımızın böyük bir hissəsi elə hazırlaşmaqla bağlıdır. Bütün işlərimizi dəyərləndirsək, görəcəyik ki, bu dünyamızın içində hər an nəyəsə hazırlaşırıq. Həzrət Əmirəlmöminin (ə) ciddi xəbərdarlıq edir ki, əslində hazırlaşılmalı ən mühüm məsələ - ölümdür.

Allah Peyğəmbəri (s) buyurur: "Üç şey ölümün ardınca gələr. Ailəsi, malı və əməlləri. Ancaq onların ikisi qayıdır, biri qalır. Ailəsi və malı qayıdır, əməlləri isə qalır". Deməli, ölümə hazırlaşmaq - ailənin rifahını ən yuxarı zirvələrə qaldırmaqla deyil. Ölümə hazırlaşmaq, mal-mülkün kəmiyyətini artırmaqla deyil. Ümumiyyətlə bu həyatımızda kəmiyyət artımı ilə ölümə hazırlaşmaq yoxdur. Ölümə hazırlaşmaq əməllərlə bağlıdır. Ailə ilə bağlıdırsa, ailə ilə bağlı əməllərimizə diqqət etməliyik. Maldırsa, malımızı necə, nəyə xərcləməyimizə fikir verməliyik. Ölümə hazırlaşmaq - əməllərə diqqət ayırmaqdır. Təəssüflər olsun ki, biz bu haqda az düşünürük.

### Dua insanı bəndəliyə yaxınlaşdırar

Biz bəzən daha böyük məsələlər ardınca olub, kiçik diqqət olunası məsələləri kənara qoyuruq. Guya yüksək amallar üçün hərəkət edirik, bunların kökündə, bünövrəsində dayanan məsələləri tərk edirik. Biz hər günümüzü, hər saatımızı Allah bəndəliyi müstəvisində yaşayıb-yaşamadığımıza diqqət etməliyik. Allah bəndəliyi qəliz deyil, sadə məsələlərdən başlayır. Allaha bəndəlik gündəlik ibadətlərə önəm verməkdən başlayır.

Bizlər Allah bəndəliyinə nail olmaq üçün ilk növbədə bunu Rəbbimizdən istəməliyik. Allahla münacata, duaya daha çox diqqət ayırmalıyıq. Dua və istəmə mədəniyyəti - ən böyük mədəniyyətdir. Kimin həyatında bu varsa, xoş olsun halına. Həyatında dua və münacat mədəniyyəti olmayan insan - əslində aciz bir insandır. Duanın, münacatın gücü fövqəl dərəcədə böyükdür. Həzrət İmam Sadiq (ə) buyurur: "Allah Təala Qiyamət günü möminlərin duasını əməl çevirər və onun vasitəsilə cənnətdə onlara artırar". Möminin duası Qiyamət günü əmələ çevrilər və cənnətdə mömin üçün xüsusi bir əlavəlik də gətirər. Dua etmək, Allahla daim ünsiyyətdə, rabitədə olmaq çox önəmlidir.

İnsanların bu məsələ üzrə 2 ciddi problemi var. Ya tam şəkildə bu kimi məsələlərə diqqət etməklə insan müəyyən mənada dünyanın gündəlik həyatda olan vəzifələrindən uzaq durur, ya da bu dünyanın içərisində çox qərq olur və gündəlik əməlləri, bəndəçiliyi ilə bağlı olan məsələlərə demək olar ki, vaxt ayırmır. Halbuki, bunlar bir-birilərinə sıx bağlıdır. Nə bünövrəsində mənəvi yükü olmayan gündəlik fəaliyyətin insana bir faydası var, nə də gündəlik həyata heç bir təsiri olmayan mənəvi həyat yaşamağın faydası var. İslamın nəzəri budur ki, insanın həyatının covhərində mənəvi bir halət dayansın və bütün davranışları, əməlləri ondan qaynaqlansın. Belə bir insanın duaları əmələ çevrilər.

### Duanın mənəvi və ictimai faydaları

Allah Peyğəmbəri (s) buyurur: "Bir nəfər dua edəndə hamı üçün dua etsin. Çünki, belə etdikdə duanın qəbul olunma imkanı daha çoxdur. Kim özü üçün dua etməmişdən qabaq 40 nəfər mömin qardaşı üçün dua etsə, bu dua həm onlar üçün, həm də onun üçün qəbul olunar". Mübarək buyuruşun içərisində həm kifayət qədər mənəvi, həm də ictimai tutum var. Qırx nəfər insan üçün dua etsək və həyatımızda davamlı olaraq bu olsa, həmin qırx nəfəri həyatda görəndə, onlara necə münasibət bəsləyərik? Özümüz onlar üçün dua etmişik, özümüz onlar üçün istəmişik, Allahla ünsiyyətimizdə onlarla bağlı diləklərimizi iqrar etmişik. Belə olan halda insanlar arasında mənəvi ab-hava nə qədər düzələr!

### Duadan ayıran əsas amil - qəflət

Biz çox zaman nə özümüz üçün, nə digər insanlar, ətrafımızdakı qardaşlarımız üçün dua edirik. Allahla dua, ünsiyyət, irtibat olmayan yerdə heç nə yoxdur. Əgər böyük İslam alimləri həyatlarında nələrəsə çatıblarsa, bu bağlantılara görə çatıblar. İnsanı duadan, Allahla münacatdan uzaqlaşdıran əsas amil isə qəflətdir. Qəflət insanı fəlakətə sürükləyən əsas amillərdəndir. Əllamə Seyyid Məhəmməd Hüseyn Hüseyni, Seyyid Haşim Həddaddan nəql edir və o da öz növbəsində böyük arif Ayətullah Qazidən nəql edir: "Biz gün Ayətullah Qazi bizlərə müraciət etdi və dedi ki, səsi və səsdən də üstün olan sürəti eşitmisiniz. Əgər qafil olsaq, nəfsin insana təsəllütü (ələ keçirməsi) elə bu cürdür". Bəllidir ki, səsin sürəti çox yuxarıdır - saatda 1200 km. Elmdə də səsin sürəti müqayisə obyekti kimi çıxış edir. Səsin sürətindən də üstün sürətlər var. Səs də bir dalğadır. Səsə müxtəlif mühitlərdə yayılır və biz bunu müşahidə edirik. Bir insan burada danışanda o, bəlli bir müddətə gedib bir yerə çatır və digər tərəfdəki də eşidir. Səslərin də müxtəlif şəraitlərdə yayılma vəziyyətini hər kəs müşahidə edib. Burada əsas məsələ budur ki, biz bunun qəflətən baş verdiyini görürük, yəni səsin bir ünvandan digərinə çatması sürətlə və xəbərdarlıqsız baş verir. Səs ki, səslənir, onun dalğası çox böyük sürətlə digərinin qəbuledicisinə çatır. Biz qəflətdə olduğumuz zaman nəfs bizi səsin sürətindən də üstün sürətlə ələ keçirdər. Qəflətdə olsaq, heç başa düşmərik ki, nə zaman nəfsin ixtiyarına keçdik. Qafil olsaq, heç anlamarıq ki, nə zaman nəfs bizi öz ixtiyarına keçirdi. Heç başa düşmərik ki, şəhvət qüvvəsi nə zaman öz işini gördü, qəzəb bizə necə hakim oldu. Qəflət - belə bir düşməndir.

### Qəflət - gizli düşməndir

Qəflətin düşmənliyinin əsas cəhəti də budur ki, gözəgörünməz düşməndir. Bir var gözə görünən düşmən. İnsana xəbərdarlıq edər, insan tərəfə gələndə onu görər, insan toparlanar, hazırlaşar. Bir də var, gözə görünməyən düşmən. Qəflət - gözə görünməyən düşməndir. Qəflətin də özünün şöbələri var. Ən dəhşətlisi budur ki, qəflət nailiyyətləri pərdəyə çevirər və bizlərin o pərdələrlə ayrılmağımız sayəsində hücum edər. Qəflət nailiyyətləri bizə qarşı istifadə edər. Bir adamın savadı olar, qəflətdə olduğu vaxt savad onun əksinə işləyər. Elə hesab edər ki, artıq hər şeyi bilir. Başqa vaxt nailiyyətlər uğur sayılar, qəflət vaxtında nailiyyətlər insan üçün pərdəyə çevrilər. Qəflətdə olan insan üçün namaz qılmaq bir səddə, ayıran pərdəyə çevrilər. İnsan islahatı ilə məşğul ola bilməz. Elə bilər ideal vəziyyətdədir. Qəflətdə olan insanın elmi, ibadəti, məqamı, malik olduğu hər bir şey onun üçün pərdəyə, örtüyə, maneəyə çevrilər. Əgər insan özünü tövbəli halda, tövbə etməyə uyğun halda görməsə - deməli, xəstə vəziyyətdədir.

### Əxlaq ustadları qəflətə necə tərif verir?

Əxlaq ustadları qəflətə tərif verərkən bildirirlər ki, insanın istedadlarını əldən verməsi, mövcud şəraitdən istifadə etməməsi - qəflət adlanır. Tövbə etməməsi, istiğfar etməməsi, namazlarının təqibatlarına fikir verməməsi qəflətdir. Ariflərin deyimi ilə desək, qəflət budur ki, insanın qəlbi ola, amma eşqi olmaya. Başı ola, amm təfəkkürü olmaya. Dili ola, amma insan haqq deyən olmaya. Ayağı ola, amma insan yaxşı yerə getməyə. Gözü ola, amma insan mütaliə etməyə. Suyu və torpağı ola, amma insan əkin əkməyə. Kitabxanası ola, amma insan kitab oxumaya. İnsanın ustadı ola, amma insan ondan bəhrələnməyə. Bu kimi durumda olan insan İslam məntiqinə görə qəflətdədir.

**Allahım, bizlərə hər günümüzü davamlı şəkildə münacatla, dualarla, istiğfarla keçirməyi nəsib et!**

**Allahım, bizləri qəflətə düşməyə qoyma!**

**Allahım, aqibətimizi xeyirli et! Amin!**

YENİ MÜSAVAT
N 210 (5919) 22 avqust 2014





# Məktəb xərcləri valideynləri təngə gətirib

## "Bir ətək pulumuz çıxır, bu bazarlıq qazancımızın əhəmiyyətli hissəsini təşkil edir"

**Yeni dərs ilinə bir aydan da az vaxt qalıb. Artıq valideynlər məktəb bazarlığı barədə düşünür və narahatlıqlar başlayır. Çünki məktəblinin məktəb bazarlığı əhəmiyyətli bir məbləğdir və valideynlər bunun üçün bir neçə ay hazırlaşmalı olurlar.**

Bu səbəbdən yeni dərs ili yaxınlaşdıqca valideynlərin həyəcanı artır. Məktəbə gedəcək uşağın geyimi, çantası, iş dəftərləri və digər məktəb ləvazimatlarını almaq üçün nə qədər pul tələb olunduğunu düşünən valideynlər dükan-dükan gəzib harada qiymətlərin nisbətən aşağı olduğunu öyrənməyə çalışır.

Biz də valideynlərin nə qədər xərcə düşdüyünü aydınlaşdırmaq üçün paytaxtın bir neçə yerində məktəbli ləvazimatları satılan dükanlarda olub qiymətlərlə maraqlandıq. Metronun "28 may" stansiyasının yaxınlığındakı yeraltı keçiddə yerləşən topdansatış mərkəzində, "8-ci kilometr bazarı"nda yerləşən topdansatış mağazasında, bazarın özündə bu ləvazimatların qiymətlərini öyrəndik.

**"28 may" metro stansiyasının yaxınlığındakı dükanın satıcısı deyir ki, burada qiymətlər şəhərin bütün yerlərindən ucuzdur:** "Malı özümüz gətiririk, buna görə qiymətlər digər yerlərdən ucuzdur. Burada mallar topdan və pərakəndə şəkildə satılır. Bol çeşidlərimiz var, məhsullarımız da keyfiyyətlidir. Əsasən Türkiyə və Dubaydan gətirilən malları satırıq. Böyük məbləğdə mal alana qiymətdə endirim də edirik".

Burada çantaların qiymətləri 20 manatdan başlayaraq 55 manata qədər artır. Satıcı çantaların keyfiyyətli olduğunu bildirməklə yanaşı, qiymətlərin bu qədər baha olmasını məhz bu amilə bağlayır: "Əksər yerlərdə bu qiymətə keyfiyyətsiz çantalar satılır ki, onlar az keçməmiş yararsız hala düşür".

Burada 12 vərəqli dəftərlər 10 qəpiyədir, 20 qəpiyə Rusiya istehsalı olan 12 vərəq dəftərlər də var. Gündəlik 80 qəpiyə, dəftər üzləri 20 qəpiyədir. Qələmlər 10 qəpikdən başlayıb 40 qəpiyə qədər bahalaşır, sadə karandaşın da ən ucuzu 20 qəpikdir. Pozan 20-80, karandaşyonan 80 qəpiyə, albom 50 qəpikdən 1 manat 50 qəpiyə qədər qiymətə təklif edilir.

Rəngli karandaşların qiyməti 1 manatdan başlayıb 5 manata qədər artır, plastilinin də ucuzu 1 manatdır. Burada bütün növ məktəb ləvazimatlarının geniş çeşidi alıcılara təqdim olunur. Satıcı alıcılarının da çox olduğunu bildirir.

Mağazadakı alıcılar isə bildirirlər ki, burada qiymətlər digər yerlərdən ucuz olduğundan, bir neçə ildir ki, bu məkandan məktəb bazarlığı edirlər. Birinci sinfə gedəcək Nurlanın anası isə bildirir ki, məktəblərin açılmasına az müddət qalsa da, hələ övladına heç nə ala bilməyib: "İndi gəlmişəm ki, heç olmasa dəftər-qələmini alım. 30 manatdan çox pul xərcləmişəm, hələ bitməyib. Hələ bunu digər xərcləri də var".

Leyla adlı xanım isə deyir ki, iki uşağı məktəblidir və onları məktəbə yola salmaq təxminən iki yüz manata başa gəlir: "Dəftər, qələm, iş dəftəri... Üstəlik məktəbli forması, ayaqqabı. O qədər xərc var ki. Bilmirsən necə çatdırasan".

**"8-ci kilometr bazarı"nda yerləşən topdansatış mağazada da qiymətlər münasibdir.** Buradan məktəb bazarlığı edən vətəndaşlar da deyirlər ki, qiymətlər kiçik dükanlara nisbətən ucuzdur. Fərqanə xanımın sözlərinə görə, iki övladı məktəblidir və onların xərci 200-250 manat tutacaq: "Təxmini hesabladım. Məktəbli formaları 52 manatdır. Hərəsinə ona yaxın iş dəftəri, o qədər də test kitabı lazım olacaq. Üstəlik, ucuz çantalar bir ay sonra cırılır. Məcbursan ki, nisbətən bahalı çanta alasan. Mən hər uşağa 30 manata olan çantadan aldım, bəlkə bununla ili başa vuralar".

Bu dükanda isə əsasən qiymət fərqi çantalardadır. Çantalar 10 manatdan başlasa da, satıcı onu almağı məsləhət görmür. Satıcının məsləhət gördüyü çantalar 35 manatdan başlayır və Türkiyə istehsalı kimi təqdim edilir. Çexiya istehsalı olan çantalar isə 85 manatadır. Bəzi alıcılar isə ucuz çantaların keyfiyyətindən narazılıq etsələr də, almağa məcbur olduqlarını deyirlər: **"Başqa əlacımız yoxdur. Bir neçə uşağın məktəb xərci neçə aylıq qazancımıza bərabərdir"**.

Satıcı isə bildirir ki, ən çox yük birinci sinif şagirdlərinin valideynlərinin üzərinə düşür: "İş dəftərləri baha, say çöpü, hesablayıcı, əmək qovluğu kimi o qədər kiçik şeylər lazım olur ki, sonunda valideyn bir ətək pul xərcləyir".

Satıcı deyir ki, bir neçə gündür alıcıların sayı artıb: "Sentyabrın 1-dən daha da sıxlıq olacaq". Dükandakı alıcılar isə əsasən iş dəftərlərinin bahalığından şikayətləndilər. **"Uşağım birinci sinfə gedəcək, 7-8 iş dəftəri almalıyam. İş dəftərlərinin qiyməti 3 manatdan başlayır, 5 manata qədər qalxır".**

Satıcıların sözlərinə görə, bir məktəblinin iş dəftəri üçün valideyn 25-30 manat pul xərcləməlidir. Üstəlik, alıcılar deyirlər ki, məktəblərə verilən əksər dərsliklər köhnə olduğundan, yenisini almaq məcburiyyətində qalırlar. Bu da hər kitab üçün beş manat pul deməkdir. **"Heç olmasa, Azərbaycan dili və riyaziyyat dərsliklərini almalıyıq"**. Satıcı isə deyir ki, üstündə "pulsuz" yazılan kitabları bir qədər ucuz sata bilirlər, amma qiymət üstündə olan kitablarda endirim etmək mümkün olmur və alıcılar üçün vəziyyət daha da çətin olur.

Qeyd edək ki, bir çox satıcılar iş dəftərlərinin şagird üçün o qədər də lazım olmadığı, sadəcə pul tələsi olduğu qənaətindədir: **"İş dəftərlərindən şagird o qədər də istifadə etmir, ildə bir neçə dəfə lazım olur. Bunu valideynlər də bilir, müəllimlər də deyir. Ancaq Təhsil Nazirliyi müəllimləri məcbur edir ki, valideynlərə iş dəftərləri almağı tapşırsınlar. Bu, pul tələsidir. Dərsliklər pulsuz verildiyindən, pul qazanmaq üçün başqa vasitə tapıblar - iş dəftərləri satmaqla itirdikləri gəliri kompensasiya edirlər".**

Satıcılar bildirirlər ki, bir uşağın iş dəftərləri və çanta daxil olmaqla məktəb ləvazimatı üçün azı yüz manat vəsait lazımdır.

Qeyd edək ki, hər il dərs ilinə bir neçə həftə qalmış məktəbli ləvazimatları ilə bağlı bahalıq problemi yaşansa da, aidiyyəti qurumlar vəziyyətə nəzarət etməkdə acizdir. Məsələn, İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tez-tez vəd versə də, məktəbli ləvazimatlarının satışını həyata keçirən obyektlərdə monitorinq keçirmək istəmir.

❑ **RÖYA**
**Fotolar müəllifindir**

# Evdən qaçan qızın harada olduğu bilinmir

## Əməkdaşımız iki üzvü intihar edən ailənin yaşadığı yerə gedib; qonşular qızın gizlədildiyini və dindirilənlərin sayının çox olduğunu bildirirlər





**Bir neçə gün əvvəl Bakıda bir ailənin iki üzvünün intiharına səbəb olan evdən qaçan qız ailəsinə təhvil verilib. Bildirilir ki, Aynur (ad şərtidir- red) polis tərəfindən tapılaraq ailəsinə qaytarılıb. Xəbər saytları həmin hadisənin görüntülərini də yayıblar. Əməkdaşımız isə ailənin yaşadığı binada olub və tapılan qızla söhbətləşmək istəyib. Yeni Yasamal 2, ev 10 ünvanına gedən əməkdaşımıza qonşular bildiriblər ki, hazırda ailə üzvlərindən heç kim həmin mənzildə yaşamır: "Heç kim yoxdur. Ana ilə qız özünü öldürüb, ata həbsdə, qardaşı da nənə aparıb".**

**Qonşuların sözlərinə görə, intihar edən ana-balanın yası bir qədər kənarda yerləşən nənənin evində verilir.** Qonşular təhvil verilən qızın harada olmasından xəbərsiz olduqlarını da vurğulayıblar: "Onun ailəyə qaytarılması düzgün deyildi. Polis niyə belə etdi? İndi heç bilmirik haradadır. Yasa gedənlər də onu həmin evdə görməyiblər. Deyəsən gizlədirlər. onun başına bir hadisə gəlsə, polis buna cavabdehlik daşıyacaqmı?".

**Bəzi qonşular faciə baş verən insanları sakit ailə kimi xarakterizə edirlər.** Bəziləri isə bildirirlər ki, ailənin bu cür duruma düşməsində ailə başçısı Asəf Fərzəliyev səbəbkardır: "O, ailəsi ilə çox pis rəftar edirdi".

**Qonşular ailə başçısının bir neçə gün əvvəl həbs edildiyini təsdiqləyiblər.** Həmçinin deyiblər ki, onun qardaşları, həmçinin ailənin 17 yaşlı oğlu da sorğu-sual ediliblər: "Onlar bir neçə dəfə dindiriliblər". Bildirilir ki, ata məhz evdən qaçan qızın polisə verdiyi ifadə əsasında həbs edilib.

**Qeyd edək ki, ailənin tapılan 14 yaşlı qızı ilə bağlı da ziddiyyətli məlumatlar yayılır.** İnterpress.az bildirir ki, bir neçə gün əvvəl tapılan qızın ailəsinə təhvil verilməsi barədə məlumat həqiqəti əks etdirmir. Hazırda A.Fərzəliyeva ailəsində deyil və təhlükəsiz yerdə saxlanılır. Buna səbəb kimi, ana və qızın intiharı, A.Fərzəliyevanın isə evdən qaçmasında müəmmalı məqamların çox olması, bu səbəbdən 14 yaşlı qızın təhlükəsizliyinin təmin edilməsinin vacibliyi göstərilir. Hətta yeniyetmə qızın qəyyumluğunun da ailəsindən alınacağı istisna edilmir.

**Qeyd edək ki, əksər peşəkar televiziyalar və internet media qurumları itkin düşmüş qızın hüquq-mühafizə orqanları tərəfindən hadisə yerinə gətirilməsini və aparılan əməliyyat prosesini yayımlayıblar.** Bu zaman yeniyetmənin üzü açıq şəkildə göstərilib. Uşaq hüquqlarının qorunması ilə bağlı ölkədə fəaliyyət göstərən QHT-lər isə bu cür durumlardan narahatdırlar. Çünki yeniyetmənin adı bir cinayət hadisəsində hallanır.

Ölkə Konstitusiyasının 32-ci maddəsində isə bildirilir ki, hər bir şəxsin şəxsi toxunulmazlıq hüququ var. Yəni öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

**Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə** isə bildirir ki, bu cür hallar azından, etik deyil: "Bu məsələlərdə on dərəcə diqqətli olmaq lazımdır. Məni o qızın taleyi narahat edir. O, yeniyetmədir, sabah məktəbə gedəcək, onun çevrəsi olacaq. İndi isə onun şəklini, görüntüsünü yayımlayıblar. Bu, əxlaqa sığmayan bir davranışdır. İnsanların taleyi ilə bu şəkildə davranmaq olmaz. Biz həmin media qurumlarını məhkəməyə vermək barədə düşünürük".

**Xatırladaq ki, bir neçə gün əvvəl Yeni Yasamal 2, ev 10 ünvanında 1968-ci il təvəllüdlü Kifayət Vəli qızı Abbasova və onun qızı, 1997-ci il təvəllüdlü Aytac Asəf qızı Fərzəliyeva özlərini yaşadıqları binanın 9-cu mərtəbəsindən ataraq intihar ediblər.** Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb və hazırda istintaq hərəkətləri davam etdirilir. Onların intihar etməsinin səbəbləri hələlik məlum olmadığı bildirilir. Polisdən bildirilib ki, iki üzvü intihar edən ailənin bir neçə gün əvvəl 14 yaşlı qızları itkin düşüb.

❑ **R.RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 210 (5919) 22 avqust 2014




# Bu ağaca toxunan ölür

"Ginnesin rekordlar kitabı"na girəcək qədər təəccüblü olan - dünyanın ən zəhərli ağacı Florida, Bahama, Kariblər, Orta Amerika və Cənubi Amerikada bitir. Mançinel adlı ağaca toxunmaq belə insan dərisində yanıq təsiri yaratmağa bəs edir. İnsan ağaca toxunduğu anda dəridə sulu qabarcıqlar əmələ gəlir. Yağış yağarkən ağacdan sıçrayan su damcıları insan orqanizmi üçün təhlükə yaradır. Mançinel ağacı yanarkən ətrafa yayılan duman insanı kor edə bilir. Məhz bu səbəbdən də ağacın bitdiyi hər yerdə xüsusi təhlükəsizlik tədbirləri görülür. Ağacı tanımayanların toxunmaması üçün ətrafına böyük afişalar asılır. Mançinel ağacı 15 metrə qədər uzana bilir. Uzun budaqlarında 10 santimetr uzunluğu olan yarpaqları və almaya bənzər meyvələri olur. Kiçik, çəhrayı rəngdə çiçək açır. Meyvələri olduqca zəhərlidir. Bəzi terror təşkilatları ağacın meyvələrini istifadə etmək üçün qaçaq yollarla ölkədən xaricə çıxarırlar. Bu ağacın meyvəsinin təsadüfən də olsa dişlənilməsi bir çox xəstəliklərin yaranmasına səbəb ola bilir. Meyvənin suyu az miqdarda da olsa yeməyin içinə qarışarsa xərçəng və infarkt riski yarada bilir.

# İlin ən çox oxunan yazısı

Ən çox oxunan yazının müəllifi nə məşhur bir redaktor, nə də müxbir deyil. "Nyu-York Times" qəzetində təcrübədə olan bir əməkdaş dünyanın ən çox oxunan xəbərini yazıb. Çox fərqli, lakin bir o qədər də bəsit mövzuda yazan jurnalist yazısını yazmaq üçün Amerikanın bütün ştatlarını gəzib. "Fərqli insanlar eyni şey haqqında nə danışa bilər?" başlıqlı yazısını yazan jurnalist qadın-kişi münasibətlərini araşdırıb. Araşdırmanı hazırlamaq üçün xeyli insanla danışıb. Yazı hazır olub saytlarda yayımlandıqdan sonra sosial mediada oxunma rekordları qırıb. Universiteti bir neçə ay əvvəl bitirmiş jurnalist Josh Katzın yazısı onun təcrübəsini bitirdikdən sonra çalışdığı qəzetdə redaktor olaraq işə başlamasına səbəb olub.




# Dünyanın ən bahalı almazı tapıldı

Şimali Afrikadakı bir mədəndə on milyonlara dəyəri olan, rast gəlinən 29,6 karatlıq almaz tapılıb. "Petr Diamond" şirkətinin rəhbəri açıqlamasında "Cullinan" adlı mədəndə tapılan almazın şam ağacanın meyvələri qədər böyük olduğunu və nadir tapılan almazlar sırasında olduğunu deyib. 3,106 karatlıq almaz bu günə qədər tapılan ən böyük mavi almazdır. Dəyərli daş cilalandıqdan sonra karatı 2 milyon dollara satışa çıxarılacaq.

Ötən il həmin mədəndə tapılan 25,5 karatlıq almaz 16,9 milyon dollara satılmışdı. 2008-ci ildə "Yusifin Ulduzu" adı verilən başqa bir mavi almaz isə 9,49 milyon dollara satışa çıxarılmışdı. Sözügedən mədəndə tapılan almazlar Bukinqam Sarayında hərraca çıxarılır və dünyanın ən dəyərli, nadir almazları hesab edilir.





# Yeni Barbie

Son zamanlarda sosial mediada məşhurlaşan barbielərə bir yenisi daha əlavə olunub. Ukraynanın paytaxtı Kiyevdə yaşayan 16 yaşlı Lolita Richi oyuncaq kuklalara bənzəyən bədən quruluşu və üzü ilə hər kəsi təəccübləndir. Belinin ölçüsü 50 santimetr olan Richi hər hansı bir estetik əməliyyat keçirmədiyini deyir. İngiltərə mediasına müsahibə verən gənc qız bədəninin doğuşdan gözəl olduğunu, istədiyi hər şeyi yeməsinə baxmayaraq bədən quruluşunun pozulmadığını deyir.




**QOÇ** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**BUĞA** - O qədər də əlverişli gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**ƏKİZLƏR** - Əgər qəlbinizdə kiçicik bir iman işığı varsa, gün ərzində Allaha zidd hərəkətlər etməyin. Əksinə, Yaradandan tövbə və bağışlanma diləyin. Heç kimin qəlbinə dəyməyin. Saat 16-19 aralığı çox uğurludur.

**XƏRÇƏNG** - Dünəndən Ayın bürcünüzə girməsi fəaliyyət sahəsində uğurlarınıza mane olmayacaq. Amma yeni münasibət qurmaq, qlobal problemləri həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu deyil.

**ŞİR** - Bu gün bürcünüzün sonuncu hakim sutkasıdır. Çox məsuliyyətli gündür. Bu səbəbdən riskdən uzaq olun ki, cəhdləriniz boşa çıxmasın. Nahar ərəfəsində perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**QIZ** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**TƏRƏZİ** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**ƏQRƏB** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**OXATAN** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq, xüsusən də sevgidə. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**BALIQLAR** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 8 yaşlı uşağın 8 kiloluq əli var



Hindistanda 8 yaşlı Kaleemin əlləri görənləri heyrətə gətirir. Həddən artıq böyük olan Kaleemin əllərinin çəkisi 8 kiloqramdır. Onun bu vəziyyətinə həkimlər də heç bir diaqnoz qoya bilmirlər. Uşağın anası Haleema deyir ki, Kaleem anadan olarkən normal böyümədiyini fərq etsə də qarşısını ala bilməyib. Kaleem anadan olanda onun əlləri normal uşağın əllərindən iki dəfə böyük olub. 8 yaşlı Kaleem məktəbdə lağa qoyulduğu üçün təhsilini də yarımçıq buraxıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

Lisenziya N: B 114
SAYI: 10.565